AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№74 (1344), 26 - 28 dekabr 2017-ci il

Qəzet 2001-ci ildən çıxır.



## İlin idman yekunları müzakirə edilib

Dekabrın 25-də Gənclər və İdman Nazirliyi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında (AzDBTİA) 2017-ci ilin yekunları ilə bağlı tədbir keçirib. Tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, gənclər və idman naziri Azad Rəhimov, Milli Olimpiya Komitəsinin vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, Milli Məclisin Gənclər və idman komitəsinin sədri Fuad Muradov, millət vəkili Adil Əliyev, AzDBTİA-nın rektoru Fuad Hacıyev, idman federasiyalarının rəhbərləri və idmançılar iştirak ediblər.

Əvvəlcə 2017-ci il ərzində Azərbaycan idmançılarının qazandıqları nailiyyətlərə və ölkəmizdə keçirilən mötəbər idman yarışlarına dair videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən gənclər və idman naziri Azad Rəhimov 2017-ci ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu bildirib. O, yola salmaqda olduğumuz ildə idmançılarımızın beynəlxalq arenada çoxlu sayda medal qazandığını, ölkəmizdə dünyanın ən mötəbər beynəlxalq idman yarışlarının təşkil edildiyini vurğulayıb: “Ölkəmiz bu il Formula-1 üzrə Azərbaycan Qran-prisi, voleybol üzrə qadınlararası Avropa çempionatının final mərhələsi, IV İslam Həmrəyliyi Oyunlarına və bir sıra mötəbər yarışlara ev sahibliyi etdi. Bu il Azərbaycanda Milli Antidopinq Agentliyi fəaliyyətə başladı. Qısa dövrdə yaranmasına baxmayaraq, bu agentlik nümunəvi olaraq dünyada seçilir.

(ardı 3-cü səhifədə)

## Bakıda Beynəlxalq Olimpiya Komitəsinin layihəsi icra olunub

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) və Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) birgə layihəsi olan idman idarəçiliyi kursu təşkil olunub. Layihə gənc liderlərin yetişdirilməsi və idman idarəçiliyində mütəxəssislərin hazırlanması üçün reallaşdırılıb.

Layihə iki hissədən ibarət olub. Birinci hissədə BOK-un mütəxəssisi Stavri Bello milli kurs direktorluğu üzrə təlim keçib. Sonra BOK-un mütəxəssisinin nəzarəti altında təlimçilər üçgünlük kurslara cəlb olunublar. Təlimlərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında “İdman İdarəçiliyi” üzrə 20 nəfər iştirak edib. Kursun əsas mövzusu Olimpiya hərəkatı, Olimpiya Oyunları və onun təşviqi olub. Həmçinin kommunikasiya, dövlət idman siyasəti, idman mütəxəssisləri və s. mövzulara da toxunulub.

Təlimin sonunda MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və BOK-un mütəxəssisi Stavri Bello iştirakçılara təbriklərini çatdırıb, onlara sertifikatlar təqdim ediblər.



## Azər Əliyev: “Azərbaycan idman ölkəsi olduğunu bu il qazanılan uğurlarla bir daha təsdiqlədi”

## Olimpiya, Avropa və dünya çempionlarımız şagirdlərlə görüşüblər

***Avropa və dünya çempionatında, Olimpiya oyunlarında uğurla çıxış edərək ölkəmizin idman şərəfini ləyaqətlə qoruyan idmançıların bir qrupu ilə İlyas Əfəndiyev adına Elitar Gimnaziyada görüş keçirilib. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.***

Görüşdə sərbəst güləşçi Hacı Əliyev, cüdoçu Elxan Məmmədov, yunan-Roma güləşçisi Rəsul Çunayev, peşəkar kikboksçu, uşu-sandaçı və K-1 döyüşçüsü Pərviz Abdullayev iştirak ediblər.

Tədbirdə idmançıların beynəlxalq arenalarda qazandıqları nailiyyətlərdən bəhs edən videoçarx nümayiş olunub.

Mərasimdə gimnaziyanın beynəlxalq yarışlarda ölkəmizə medal qazandıran şagirdləri təqdim edilib, onların uğurları barədə məlumat verilib.

Tədbirdə həm də gimnaziyanın estafet yarışında qalib gələn altıncı sinif şagirdlərinə medal və diplomlar təqdim olunub.

İdmançılar şagirdlərə karyeraları, idman uğurları, ölkəmizdə idmanın inkişafı və s. barədə ətraflı məlumat verərək, onların suallarını cavablandırıblar.

## Gimnastlarımız beynəlxalq turnirdə 3 medal qazanıblar




Azərbaycan gimnastları Moskvada keçirilən beynəlxalq turnirdə 3 medala sahib olublar.

Kişi və qadın idman gimnastikası üzrə Mixail Voroninin şərəfinə keçirilən kubok yarışlarında gimnastlarımızdan Marina Nekrasova və Yuliya İnşina komanda hesabında fərqləniblər. Yalnız Rusiya və Özbəkistan komandasına güzəştə gədən idmançılarımız 95.950 xalla turnirin bürünc medalına yiyələniblər. Ayrı-ayrı alətlər üzrə finallarda isə Marina şəxsi hesabına da medal yazdırmağı bacarıb. Sərbəst hərəkətlərdə çıxışı gimnastımıza gümüş medal (12.266 xal) qazandırıb. Növbəti uğurlu çıxışını Marina gimnastika tirində nümayiş etdirib. Bu alətdə icrasına görə hakimlərdən 12.433 xal alan idmançımız ikinci bürünc medalını qazanıb.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”*

## Namiq Abdullayev: “Gənclərimiz Olimpiya çempionlarına bənzəmək istəyirlər”

## Tofik Karayevin şərəfinə XXI beynəlxalq turnir

***Dekabrın 23-də SSRİ rekordçusu, ümumittifaq dərəcəli hakim, professor Tofik Karayevin şərəfinə XXI beynəlxalq turnir keçirildi. Yarışlarda 2000-ci il təvəllüdlü və kiçik yaş qruplarında idmançılar qüvvələrini sınadılar.***

(ardı 2-ci səhifədə)

## Olimpizm

### Pxenyan-2018 Olimpiadasına biletlərin 60 faizi satılıb

Cənubi Koreyanın Pxenyan şəhərində keçiriləcək XXIII Qış Olimpiya Oyunlarına biletlərin 60 faizi satılıb.

Pxenyan-2018 Təşkilat Komitəsinin məlumatına görə, idmansevərlər yarışları izləmək üçün satışa çıxarılan 1 milyon 70 min biletdən 655 minini artıq alıblar. Ayrı-ayrı yarışlara gəldikdə, ən çox bilet (81 faiz) dağ xizəyi idman növü üzrə satılıb. Olimpiadanın fevralın 9-da keçiriləcək açılış mərasimi üçün isə biletlərin 67 faizi öz sahibini tapıb.

Martın 9-18-də Pxenyanda keçiriləcək qış Paralimpiya Oyunları üçün hələlik 37 faiz bilet satılıb.

Fevralın 9-dan 25-dək keçiriləcək XXIII Qış Olimpiya Oyunlarında idmançılar rekord sayda - 102 dəst medal uğrunda mübarizə aparacaqlar.

### Tokio-2020 Olimpiadasında yeni sistem tətbiq olunacaq

Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarında şəxsiyyətin identifikasiyası başqa sistemlə həyata keçiriləcək. Belə ki, idmançılar, məmurlar, jurnalistlər və könüllülər üçün şəxsiyyətin müəyyən edilməsi üzdən tanıma sistemi ilə kütləvi qaydada aparılacaq. Bu, olimpiada tarixində bir ilkdir.

Bu üsulun həyata keçirilməsində məqsəd təhlükəsizliyin təmin edilməsi və terror aktlarının qarşısının alınmasıdır. Bu sistem həm də başqasının buraxılış vəsiqəsi ilə idman obyektlərinə girişin qabağını almış olacaq. İlkin hesablamalara görə, sistemdə bir dəfəyə 300 mindən 400 minə qədər insanın şəxsiyyətini yoxlamaq mümkün olacaq.

Üzdən tanıma sisteminin hazırlanması ilə Yaponiyanın NEC elektronika şirkəti məşğul olur. Məlumat üçün bildirək ki, bu sistem Rio-2016 Olimpiadasında jurnalistlərin “Yapon evi”nə girişi zamanı sınaqdan keçirilib.

TOKYO 2020

XXXII Yay Olimpiya Oyunları 2020-ci ildə iyulun 24-dən avqustun 9-dək Yaponiyanın Tokio şəhərində təşkil ediləcək.

## Anons

AMADA və AAAF birgə anti-doping seminarı təşkil ediblər — Səh. 2

Yığmamız komanda hesabında birinci oldu — Səh. 2

Azərbaycan boksunun rinq ustaları — Səh. 5

“Olimpnews.az” saytının ənənəvi sorğusuna əsasən ilin ən yaxşıları müəyyənləşdi — Səh. 3

Paralel yol gedənlər: Pep Qvardiola və Joze Mourinyo — Səh. 6

# Azər Əliyev:

## "Azərbaycan idman ölkəsi olduğunu bu il qazanılan uğurlarla bir daha təsdiqlədi"



Azərbaycan idman ölkəsidir. Bunu artıq bütün dünya, idman ictimaiyyəti bilir. Azərbaycanda idmanın, Olimpiya hərəkatının inkişafı ilə bağlı məqsədyönlü siyasət aparılır. Artıq neçə illərdir ki, ölkəmizdə irimiqyaslı beynəlxalq yarışlar keçirilir.

Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti Azər Əliyev AZƏRTAC-a müsahibəsində idman ilinin yekunları və idmançılarımızın uğurları barədə danışıb.

***- 2016-cı ildə olduğu kimi, yola salmağa hazırlaşdığımız 2017-ci il də ölkəmizin idman həyatında bir çox hadisələrlə, qələbələrlə yadda qalıb. Siz, ilk növbədə, nəyi qeyd edərdiniz?***

- Əlbəttə, ən əsas idman nailiyyətimiz kimi, biz bu il Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunlarını qeyd etməliyik. Məlumdur ki, biz bu yarışlarda medal sayına görə güclü Türkiyə yığmasını qabaqlayaraq birinci yeri tutduq. Azərbaycan iki il bundan əvvəl birinci Avropa Oyunlarını, bu il isə İslamiadanı yüksək səviyyədə keçirməklə nümayiş etdirdi ki, istənilən beynəlxalq idman tədbirini uğurla təşkil etməyə qadirdir.

Digər nailiyyətlərlə yanaşı, "Qarabağ" futbol komandası da bizi çox sevindirdi. Azərbaycan futbolunun tarixində bizim komanda ilk dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazandı. Ağdam klubu "Çelsi", "Roma" və "Atletiko" kimi adlı-sanlı rəqiblərə qarşı layiqli oyun nümayiş etdirdi. Madrid komandası ilə iki heç-heçəni isə heç kim gözləmirdi. Onlara əhsən, yaxşı oyun göstərməyi bacardılar.

Bundan başqa, idmanın fərdi növlərində də uğurlarımız olub. Məhəmmədrəsul Məcidov boks, Hacı Əliyev güləş üzrə üçqat dünya çempionu olublar. Həmçinin xatırlatmaq istərdim ki, Bakıda ikinci dəfə Formula-1 yarışları keçirildi. Bir çoxları budəfəki yarışı mövsümün ən maraqlı və yaxşısı adlandırdılar. Beləliklə, Azərbaycan üçün idman ilinin uğurlu olduğunu deyə bilərik.

***- Sizin təşəbbüsünüz olan "İdman hamı üçün" layihəsi barədə nə deyə bilərsiniz? Həmin layihənin məqsədləri nədən ibarətdir? İndiyədək nə kimi işlər görülüb?***

- Bu layihə Beynəlxalq Olimpiya Komitəsinin "Gündəlik-2020" təşəbbüsü əsasında yaranıb. "Gündəlik"də dopinqə qarşı mübarizə, gender bərabərliyi, Olimpiya təhsili və başqa məqamlara aid 40 tövsiyə var. Bu il Azərbaycan Milli Olimpiya Komitəsi həmin gündəliklə əlaqədar komissiya yaradıb. Biz özümüz üçün hansı tövsiyələrin zəruri olmasını araşdırdıq. Qərara alındı ki, həll etməli olduğumuz birinci məsələ gender bərabərliyidir. Bildiyiniz kimi, Azərbaycanda qızların idmanla məşğul olması o qədər də geniş yayılmayıb. Müəyyən ənənələr, məhdudiyyətlər var. Qızlar arasında idmanı təbliğ etmək məqsədilə "İdman hamı üçün" adlı televiziya proqramı yaratmağı qərara aldıq. Eyni zamanda, idmanda gender bərabərliyini inkişaf etdirməklə yanaşı, biz hamı üçün sağlam həyat tərzini təbliğ etməyə çalışırıq. Proqram da belə adlanır: "İdman hamı üçün". Bu o deməkdir ki, hamı - oğlanlar da, qızlar da, cavanlar da, yaşlılar da idmanla məşğul olmalı və hamı sağlam həyat tərzi keçirməlidir. Əsas məqsəd budur. İndi bizdə ikinci mövsüm başlanıb. Velosiped idmanı, cüdo haqqında süjetlər göstərilib. Bu proqram hər həftənin bazar günü "Space" telekanalında gündüz saat 12-də göstərilir.

***- Son illər ağır atletika idmanında qazandığımız uğurlar göz qabağındadır. Ölkəmizdə idmanın bu növünün daha da inkişaf etdirilməsi üçün hansı tədbirlər görüləcək?***

- Doğrudan da, IV İslam Həmrəyliyi Oyunlarının ağır atletika yarışları bizim üçün çox uğurlu oldu. Biz 4 medal qazandıq - 1 qızıl və 3 bürünc. Təəssüf ki, dopinq ilə əlaqədar olaraq bizim federasiya və daha 8 ölkənin müvafiq qurumları diskvalifikasiya edilib. Biz beynəlxalq yarışlarda çıxış edə bilmirik. Federasiyanın məqsədi "Tokio-2020" və ya "Paris-2024" olimpiadalarında ölkəmizi ləyaqətlə təmsil edə biləcək gənc idmançılar hazırlamaqdır. Hesab edirəm ki, idmanın bu növündə bizim böyük potensialımız var. Biz bu potensialı Kosovoda, 15 yaşa qədər idmançılar arasında Avropa çempionatında nümayiş etdirdik. Orada idmançılarımız ümumi komanda hesabında birinci yeri tutdular. İstəyirik ki, bizim gənc idmançılar öz peşəkarlıqlarını daim yüksəltsinlər.

***- 2019-cu ildə Bakıda Yeniyetmələrin Yay Olimpiya Oyunları keçiriləcək. Bu Oyunlara hazırlıq necə gedir?***

- Bu il Macarıstanda belə bir yarış keçirildi. Bu, həqiqətən möhtəşəm yarış idi. Gənc idmançılar beynəlxalq səviyyəli bu cür geniş miqyaslı yarışlarda ilk dəfə iştirak etmək imkanı qazanmışdılar. Çox şadam ki, Yeniyetmələrin növbəti Yay Olimpiya Oyunları 2019-cu ildə bizim ölkədə, Bakıda keçiriləcək. Birinci Avropa Oyunları və İslamiada üçün yaradılmış infrastruktur var, müəyyən təcrübə toplamışıq. Ona görə də bu tədbirin keçirilməsində hər hansı çətinliyimiz olmayacaq. Həmin Oyunlar üçün nə lazımdırsa, demək olar ki, hazırdır.

Onu da xatırlatmaq istəyirəm ki, gələn il Azərbaycanda cüdo üzrə dünya çempionatı keçiriləcək. İdmançılarımız mütəmadi olaraq idmanın bütün döyüş növlərində - istər boks, istər güləş və ya cüdo olsun, - həmişə medallar qazanırlar. Ümidvarıq ki, bundan sonra da belə olacaq.

Gələn ilin fevralında Koreya Respublikasında Qış Olimpiya Oyunları keçiriləcək. Bizdə qış idman növləri o qədər də inkişaf etməyib. Həmin Oyunlarda ölkəmizi yalnız bir nəfər - dağ xizəkçisi təmsil edəcək. Onun yaxşı nəticələr qazanacağına ümid bəsləyirik.

Əminəm ki, növbəti idman ili də bizim üçün uğurlu olacaq. Çünki Azərbaycanda idman davamlı inkişaf edir, idmançılarımızın peşəkarlıq səviyyəsi getdikcə artır.

***- Maraqlı söhbətə görə sağ olun.***

*(əvvəli 1-ci səhifədə)*

Medallar uğrunda Azərbaycan atletləri ilə yanaşı, Gürcüstan və Dağıstan idmançıları da yarışdılar. İdmançılar uzunluğa tullanma, 60 m, 200 m (qızlar) və 400 m məsafəyə (oğlanlar) qaçış növlərində mübarizə apardılar. Qaliblər həm ayrı-ayrı növlərdə, həm də üç növün cəminə görə müəyyən olundu.

Yarışın sonunda qalib və mükafatçılara diplomlar, medallar və kuboklar təqdim olundu.

Beynəlxalq turnir başa çatdıqdan sonra Tofik Karayevin yarışla bağlı təəssüratlarını öyrəndik. Tofik müəllim dedi ki, 84 yaşı var və indiyədək idmanda, eləcə də elmdə ad qoyduğu üçün özünü xoşbəxt hesab edir: "Özümü xoşbəxt insanlardan hesab edirəm. 21 ildir ki, şərəfimə beynəlxalq turnir keçirilir. Turnirdə Azərbaycanın dövlət bayrağı qaldırılır, himn səslənir. 12 dəfə müxtəlif idman növləri (avarçəkmə, voleybol və atletika) üzrə yarışlarda Azərbaycan çempionu adına layiq görülmüşəm, vaxtilə voleybol üzrə ölkə yığmasının kapitanı olmuşam.

# Tofik Karayevin şərəfinə XXI beynəlxalq turnir



Yarışların təşkilindən və idmançıların çıxışlarından çox razıyam. Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının prezidenti Çingiz Hüseynzadəyə, Gənclər və İdman Nazirliyinə minnətdarlığımı bildirirəm. Qeyd edim ki, bu turnirlərin qalibləri sonra ölkə və beynəlxalq səviyyəli yarışlarda fərqlənir, çempion adını alırlar".

Qeyd edək ki, Tofik Karayev elm və idmanı bir arada tutmağı bacaran insanlardandır. O, tanınmış elm xadimi, geofizikdir. Tofik müəllim uzun müddətdir ki, Azərbaycan Olimpiya Akademiyasının vitse-prezidenti vəzifəsində çalışır.

***Səadət Hakıyeva***



# Yığmamız komanda hesabında birinci oldu

Azərbaycan boksunun banisi Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclər arasında ənənəvi beynəlxalq turnir başa çatıb. Azərbaycan Boks Federasiyasının idman zalında təşkil olunan yarışda Azərbaycan idmançıları ilə yanaşı, Rusiya, Ukrayna, Tacikistan, Hindistan, İran, Türkmənistan, Pakistan, Qazaxıstan, Gürcüstan və Özbəkistanı təmsil edən boksçular da qüvvələrini sınayıblar. Komandamız turnirdə 3 qızıl, 2 gümüş və 7 bürünc medal qazanıb. Millimizin heyətində Maqsud Xasmətov (49 kq), Əflatun Babayev (52 kq) və Amid Əlizadə (56 kq) bütün rəqiblərinə qalib gələrək, çempion adına sahib çıxıblar. Yalnız finalda uduzan Məhəmməd Yusifovla (75 kq) və Zaur Musayev (81 kq) ikinci yerə layiq görülüb. Digər boksçularımızdan Nurlan Səfərov (60 kq), Səlim Səlimov (64 kq), Cavid Qurbanov (69 kq), Elmir Süleymanov, İbrahim Məhəmmədhəbib (hər ikisi 81 kq), İsmayıl Yaqubov (91 kq) və Elgün Nəzərli (+91 kq) bürünc medalla kifayətləniblər.

Yığmamız bu nəticə ilə komanda hesabında birinci yeri tutub. Yarışda ikinci yerə Özbəkistan komandası sahib çıxıb. Asiyalılar Abbas Ağalarov turnirində 2 qızıl, 2 gümüş və 3 bürünc medala yiyələniblər. Ukrayna yığması isə üçüncü olub. Onlar Bakıda 2 qızıl, 1 gümüş və 2 bürünc medala sahib çıxıblar.

Qaliblər kubok və diplomlarla təltif olunublar.

Noyabrın 24-də 80 illik yubileyini qeyd edən Azərbaycan Boks Federasiyasının I vitse-prezidenti Ağacan Abiyevə mükafatlandırma mərasiminin yekununda Özbəkistan Boks Federasiyası tərəfindən xüsusi hədiyyə təqdim olunub.

# AMADA və AAAF birgə anti-dopinq seminarı təşkil ediblər

***Dekabrın 22-də ağır atletika üzrə Azərbaycan milli komandalarının mərkəzi məşq bazası olan "AAAF Park" yaşayış kompleksinin konfrans zalında Azərbaycan Ağır Atletika Federasiyası (AAAF) və Azərbaycan Milli Anti-Dopinq Agentliyinin (AMADA) birgə təşkilatçılığı ilə anti-dopinq seminarı keçirilib.***

AAAF-dan "Olimpiya dünyası" qəzetinə bildirilib ki, tədbirdə "Zirvə Liseyi"nin ağır atletləri və təlim-məşq toplanışında olan yığma komandalarımızın idmançı və məşqçi heyəti iştirak edib. Seminarı AMADA-nın təhsil və təlim üzrə meneceri Lalə Hacıyeva və mütəxəssis-həkim Fərid Əliyev aparıb.

Sonda idmançılar anonim dopinq sorğusunda iştirak edib, onlara maarifləndirici buklet və kitabçalar paylanıb.

AAAF-ın son zamanlar dopinqlə mübarizəyə sərf etdiyi əmək, görülən işlər, əldə olunan nəticələr təqdir edilib. Qeyd olunub ki, qadağan olunmuş maddələrdən istifadə edərək nəticə qazanmaq istəyi ciddi bəladır və onun qarşısını almaq böyük vaxt və çalışma tələb edir. Federasiya bu istiqamətdə xüsusilə də gənc nəslin maarifləndirilməsinə böyük önəm verir, idmançıların onları gözlədiyi təhlükəni bilmələri, dərk etmələri üçün əlindən gələni edir.

Tədbirdə bu istiqamətdə AMADA-nın fəaliyyətinin də təqdirəlayiq olduğu xüsusi vurğulanıb. Diqqətə çatdırılıb ki, bu qurumun əsas funksiyaları anti-dopinq proqramının idarəedilməsi və təşviqi, yarışma müddəti və yarışmadan kənar müddətdə testlərin keçirilməsi, nəticələrin təhlili, idmançıların maarifləndirilməsi, dopinqin aşkarlanması, qarşısının alınması və profilaktikası, cəmiyyət və idman ictimaiyyəti arasında idmanda dopinq istifadəsinin qarşısının alınması məqsədilə məlumatlandırma işinin aparılmasıdır.



İştirakçılara qadağan olunmuş maddələrdən istifadənin fəsadları, onların qəbuluna görə tətbiq olunan cəzalar, yenilənən siyahı və onun tərtib olunma meyarları, yarış vaxtı və ondan kənarda test götürülmə qaydaları, idmançıların məkan məlumatları, ADAMS sistemi, terapevtik istifadə üçün istisnalar və digər vacib məqamlar barədə ətraflı məlumat verilib. Proyektor vasitəsilə deyilənlər əyani şəkildə göstərilib. Seminar interaktiv halda aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

AAAF bu qəbildən seminarların vacibliyi nəzərə alaraq onun mütəmadi qaydada təşkilini təmin edəcək.

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə tədbir keçirilib

DİN-in İdman Cəmiyyətində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə "Azərbaycan bütün dünya azərbaycanlılarının tarixi vətəni, doğma ata-baba ocağıdır" mövzusunda elmi praktik konfrans təşkil olunub. Tədbir Gənc Vətənpərvərlər Birliyi (GVİB) Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondun maliyyə dəstəyi ilə "Gənclər arasında vətənpərvərlik tərbiyəsinin təşviqi" adlı layihə çərçivəsində keçirilib.

Tədbiri giriş sözü ilə açan DİN-in İdman Cəmiyyətinin sədri, polkovnik birliyin sədri Zemfira Meftexetdinova tədbir iştirakçılarını yeni il münasibəti ilə təbrik edib, onların işlərində yeni-yeni uğurlar arzulayıb. O, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün ümumxalq bayramı kimi qeyd olunmasında ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərinin olduğunu vurğulayıb.

Layihə rəhbəri Müqamət Əliyev tədbir iştirakçılarını Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə təbrik edib və Dünya azərbaycanlılarının ilk qurultayının 2001-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə keçirildiyini xatırladıb. O qeyd edib ki, dünyanın bir çox dövlətlərində formalaşan diasporlarımız hansı ölkədə yaşamasından asılı olmayaraq tariximizi, mədəniyyətimizi, mədəni irsimizi layiqincə təbliğ etməlidirlər. Müqamət Əliyev Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiya-Azərbaycan Gənclər Təşkilatının sədri Leyla Əliyevanın bir gənc olaraq Azərbaycan üçün imza atdığı layihələrdən danışıb.

Tədbirdə digər çıxış edənlər mövzu ilə bağlı öz fikirlərini söyləyib və bu layihənin davamlı olmasının əhəmiyyətindən danışıblar.

Məlumat üçün qeyd edək ki, təşkilatın bu mövzuda digər tədbirləri dekabrın 28-31-də Bakı, Gəncə və Şəmkir şəhərlərində keçiriləcək.

(əvvəli 1-ci səhifədə)

# İlin idman yekunları müzakirə edilib



Azərbaycan idmançılarının son illərdə beynəlxalq arenalarda göstərdikləri uğurlu nəticələr idmanımızın yüksək inkişaf mərhələsində olduğunu bir daha sübut edir. Ölkəmizdə idmanın inkişafına göstərilən davamlı diqqətin nəticəsidir ki, hər il olduğu kimi bu il də qarşıya qoyulan tapşırıqlar layiqincə yerinə yetirilib. İdman növləri üzrə yığma komandalarımız 2017-ci ildə 234 beynəlxalq yarışda, o cümlədən, dünya, Avropa çempionatlarında, respublika yarışlarında iştirak edib. Atletlərimiz bu yarışlarda 851 medala yiyələniblər. Bu medalların 454-ü Olimpiya idman növlərinin payına düşür. Bu il ölkəmizdə 55 yüksək səviyyəli beynəlxalq yarış təşkil olunub. Sona çatmaqda olan 2017-ci ildə ölkəmizdə həmçinin güllə atıcılığı üzrə Dünya kuboku, bədii gimnastika üzrə Dünya kuboku, Vüqar Həşimovun xatirəsinə həsr olunmuş "Shamkir Chess" beynəlxalq şahmat turniri və digər yarışlar uğurla təşkil olunub", - deyə Azad Rəhimov bildirib.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə tədbirdə çıxış edərək Azərbaycanda idmanın inkişafı haqqında danışıb. O, ölkəmizin həm fiziki, həm də intellektual cəhətdən güclü idmançılara sahib olduğunu deyib. "Bu gün biz ilin yekunlarını qeyd etmək üçün burada toplaşmışıq. Biz hər il böyük uğurlar qazanırıq. Hesab edirəm ki, bu il Azərbaycan idmanı üçün daha uğurlu oldu. Azərbaycan hər zaman fərdi idman növlərində fərqlənən idman ölkəsidir. Bu il isə biz təkcə döyüş növlərində deyil, idmanın digər növlərində də uğurlar əldə etdik. Azərbaycanda intellektual idman növləri də yüksək səviyyədə inkişaf edib. Şahmatçılarımız bu il çox böyük nəticə göstərərək üçüncü dəfə Avropa çempionu adını qazandılar. Bu il əldə olunan uğurlar sırasında "Qarabağ" futbol klubunun çıxışını da qeyd etmək istəyərdim. Komandamız Çempionlar liqasının qrup mərhələsinə yüksələrək tarixi uğura nail oldu. Bu il bizim üçün bir sevindirici məqam da ondan ibarətdir ki, qadın voleybolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Faiq Qarayev Beynəlxalq Olimpiya Komitəsi tərəfindən xüsusi diplomla mükafatlandırılıb. BOK-un prezidenti Tomas Baxın imzaladığı diplom Faiq Qarayevə qadın idmanına göstərdiyi xidmətə görə təqdim edilib. Bu il həmçinin Milli Olimpiya Komitəsinin 25 illik təntənəli yubileyi qeyd olundu. Azərbaycan idmanında qazanılan böyük uğurlar, dəyişikliklər məhz bu 25 ildə baş verib. 20 il bundan əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra bu uğurlu inkişafın təməli qoyuldu. Biz bu gün böyük fəxrlə deyirik ki, Azərbaycan idman ölkəsidir. İdmançılarımızın əldə etdikləri qələbələr və ölkəmizin mötəbər yarışlara uğurla ev sahibliyi etməsi bunu bir daha sübut edir", - deyə Çingiz Hüseynzadə bildirib.

Sonda ilin ən yaxşı məşqçisi, hakimi, idmançısı, federasiyası, idman klubu, idman verilişi və jurnalisti nominasiyaları üzrə qaliblər mükafatlandırılıb.

---

# "Olimpnews.az" saytının ənənəvi sorğusuna əsasən ilin ən yaxşıları müəyyənləşdi





***Dekabrın 25-də Beynəlxalq Mətbuat Mərkəzində 2017-ci ilin idman yekunlarına görə, "Olimpnews.az" saytının ənənəvi sorğusuna əsasən ilin ən yaxşısı seçilən şəxslərin mükafatlandırma mərasimi olub.***

***Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Xəzər İsayev, MOK-un baş katibi Ağacan Abiyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov və "Olimpiya dünyası" qəzetinin baş redaktoru Murad Fərzəliyev tədbirdə çıxış edərək ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından danışıb, atletlərimizin beynəlxalq arenada qazandıqları nailiyyətlər barədə məlumat veriblər.***

Qeyd edilib ki, cari il ölkə idmanı üçün uğurlu olub. Ölkəmizdə IV İslam Həmrəyliyi Oyunları, Formula-1 Azərbaycan Qran-Prisi, qadın voleybolçular arasında Avropa çempionatı yüksək səviyyədə təşkil edilib. İdmançılarımız il ərzində 840-dan artıq medal qazanıblar. Bütün bu uğurlar Azərbaycanın idman ölkəsi olduğunu dünyaya bir daha sübut edib. Güclü idman infrastrukturu və yüksək təşkilatçılıq bacarığı ölkəmizi Avropanın Olimpiya mərkəzinə çevirib. Bütün bu uğurların ictimaiyyətə çatdırılmasında KİV-lərin də rolu böyükdür.

Sonra sorğunun nəticəsinə əsasən 27 nominasiya üzrə qalib elan edilən şəxslər mükafatlandırılıblar.

Mərasimdə "İlin idman xadimi" nominasiyasında MOK-un baş katibi Ağacan Abiyev, "İlin idman adamı" nominasiyasında Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov, "İlin ən fəal idman cəmiyyəti rəhbəri" nominasiyasında isə Olimpiya çempionu Zemfira Meftexetdinova qalib elan olunublar.

Olimpiya idman növləri üzrə "İlin ən yaxşı federasiyası" adına Azərbaycan Həndbol Federasiyası, gənclərin hərbi-vətənpərvər ruhunda tərbiyəsində fəaliyyətinə görə "İlin ən yaxşı federasiyası" Azərbaycan Universal Döyüş Növləri Federasiyası layiq görülüb. Həmçinin yarışların təşkilinə görə "İlin ən yaxşı idman mərkəzi" adına "Sərhədçi" İdman Olimpiya Mərkəzi və Dövlət Gömrük Komitəsinin İdman Sağlamlıq Mərkəzi sahib olublar.

Sorğuya əsasən ilin ən yaxşıları nominasiyasında "İdmanın kütləviliyinin artırılmasında göstərdiyi xidmətlərə görə" Xəzər rayon gənclər və idman idarəsinin rəisi Vüqar Əliyev, idmanın inkişafında göstərdiyi xidmətlərə görə "İlin iş adamı" Səbuhi Rəcəb, qeyri-Olimpiya idman növləri üzrə "İlin idmançısı" universal döyüşçü Tahir Məsimov, "İlin idman klubu" "Sarvan" İdman Klubu, "İlin idman yazarı" Mobil İsmayılov, "İlin idman ictimai birliyi" "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyi, "İlin məşqçisi" Samir Həsənov, "İlin peşəkar idmançısı" Rafət Əsədov,





"İlin ən yaxşı Olimpiya İdman Kompleksi" Qazax Olimpiya İdman Kompleksi, qeyri-Olimpiya idman növləri üzrə

"İlin ən yaxşı federasiyası" Azərbaycan Alpaqut Federasiyası, "İlin ən fəal idman kompleksi" Sumqayıt Olimpiya İdman Kompleksi, qeyri-Olimpiya idman növləri üzrə "İlin məşqçisi" Ellər Orucov, "İlin ən yaxşı gənc idmançısı" Daniel Holostenko və "Döyüş növləri üzrə ilin məşqçisi" Ruslan Əfəndiyev diplomlara layiq görülüblər.

Bölgələr üzrə "İlin ən yaxşı məşqçisi" Xəyal Əliyev, "İlin ən yaxşı klub məşqçisi" Xəyyam Abışov, "İlin perspektivli idmançısı" Ayan Əliyeva və "İlin texnikalı idmançısı" nominasiyasında Samir Salmanov, "İlin idman jurnalisti" nominasiyasında isə AZƏRTAC-ın əməkdaşı Səxavət Quliyev mükafatlandırılıblar.

---

# Zenit"in güləşçiləri Azərbaycan çempionatını uğurla başa vurublar

"Zenit" Bədən Tərbiyəsi və İdman Cəmiyyəti İctima Birliyi (BTİCİB) ölkədə bədən tərbiyəsi və idmanın inkişafında, yüksək dərəcəli məşqçilərin, idmançıların hazırlanmasında özünəməxsus xidməti olan təşkilatlardan biridir. 1993-cü ildən fəaliyyət göstərən və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının tərkibində olan "Zenit" İC-nin idmançıları Avropa və dünya birinciliklərində, Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil edirlər.

Cəmiyyətin idmançıları yerli yarışlarda da öz fəallıqları ilə seçilirlər. Yola saldığımız 2017-cü il "Zenit" Bədən Tərbiyəsi və İdman Cəmiyyəti İctima Birliyi üçün uğurlu olub. Bu uğurlardan biri də dekabrın 14-18-də böyüklər arasında güləş üzrə keçirilən Azərbaycan çempionatında cəmiyyətin idmançılarının nümunəvi çıxış etmələridir. "Zenit" bu yarışlarda 16 idmançı ilə təmsil olunub. Onlardan 9-u ölkə çempionatında uğurla çıxış edərək mükafatalayiq yerləri tutub. Belə ki, sərbəst güləşçilər Rio-2016 Olimpiadasının bürünc mükafatçısı Cəbrayıl Həsənov (79 kq) və dünya və Avropa çempionu Əfqan Xaşalov (57 kq) Azərbaycan çempionu adına layiq görülüblər. Yunan-Roma güləşi üzrə 3 idmançı isə yarışları 2-ci yerdə başa vurub. Mikayıl Rəhmanov (63 kq), Hüseyn Abbasov (77 kq) və Namaz Restəmov (66 kq) gümüş medal qazanıblar. Cəmiyyətin 4 idmançısı isə Azərbaycan çempionatının bürünc medalına sahib olub. Sərbəst güləşçilər Əliabbas Rzazadə (57 kq), Mahir Əliyev (125 kq) və yunan-Roma güləşçiləri Adəm Cəlilov (130 kq), Nofəl Babayev (72 kq) 3-cü pillədə yer alıblar.

## Xəbərlər

### Məktəblilərin Yeni il Olimpiadası

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə, həmçinin velosiped idman növünə marağı artırmaq məqsədilə dekabrın 30-dək V- VII sinif şagirdləri üçün olimpiada keçiriləcək. Respublika Velotrekində təşkil olunan yarış Azərbaycan Velosiped İdmanı Federasiyası və "İSMA" Velosiped Zavodunun birgə təşkilatçılığı, Bakı şəhər Təhsil İdarəsi və "IB Klub"un dəstəyi ilə həyata keçirilir.

Tədbir çərçivəsində məktəblilər Respublika Velotrekində yerləşən Velosiped Muzeyi, "İSMA" velosipedlərinin sərgi-satış mərkəzi, Velosiped Treki, BMX stadionu, idmançıların təlim-məşq şəraiti ilə tanış olacaq, Azərbaycan tarixi və velosiped idmanına aid suallardan tərtib olunmuş bilik yarışında iştirak edəcəklər.

Olimpiadanın sonuncu günündə - dekabrın 30-da ilkin mərhələlərdə yüksək nəticə göstərmiş şagirdlər final mərhələsində mübarizə aparacaq və qaliblərə federasiya tərəfindən diplom, həmçinin "İSMA" zavodunun istehsalı olan velosipedlər hədiyyə ediləcək.

### "Sərhədçi" "Prezident Kuboku" turnirinin qalibi oldu

Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində keçirilən çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turnirinə yekun vurulub. Turnirin sonuncu günündə oyunları Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev izləyiblər.

Yarışda bürünc medallar uğrunda Ağcabədi və Ağstafa komandaları mübarizə aparıb. Oyunda 3:0 hesabı ilə qalib gələn Ağcabədi komandası bürünc medala layiq görülüb.

Final qarşılaşmasında isə "Sərhədçi" və "Polad" komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən oyunda "Sərhədçi" komandası 2:1 hesabı ilə qalib gələrək çempion adını qazanıb.

Qaliblərə kubok, medal və diplomlar təqdim olunub.

### Çempionatda 250-ə yaxın idmançı yarışıb

Bakı İdman Sarayında kyokşin karate üzrə XIX açıq respublika çempionatı təşkil olunub. Yarış Gənclər və İdman Nazirliyi, Döyüş Növlər Şurası və Azərbaycan Kyokşin Karate Federasiyası (AKKF) birgə təşkilatçılığı ilə keçirilib. Çempionatda 250-ə yaxın idmançı qüvvəsini sınayıb. Yarışın keçirilməsində əsas məqsəd növbəti il üçün yığma komandanın formalaşmasından ibarət olub.

Turnirin açılış mərasimində AKKF-nin vitse-prezidenti və Beynəlxalq Şinkyokşin Federasiyasının Azərbaycan nümayəndəsi altıncı dan qara kəmər ustası Allahverdi Rüstəmov çıxış edərək idmançılara uğurlar arzulayıb.

Azərbaycanda kyokşin karatenin inkişaf etməkdə olduğunu bildirən Allahverdi Rüstəmov bu idman növü üzrə idmançılarımızın beynəlxalq arenalarda fəxri kürsüdə yer aldığını vurğulayıb.

Rəsmi hissədən sonra Azərbaycanın dövlət himni səsləndirilib.

Açılış mərasimindən sonra çempionatda bütün yaş kateqoriyalarında kişi və qadın idmançıların mübarizəsinə start verilib. Yarışda fərqlənən idmançılar diplom və medallarla təltif olunublar.

---

# Həmrəylik Gününə həsr olunmuş yarış keçirilib



Dekabrın 23-24-də 13 saylı İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman Məktəbində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan cüdo üzrə açıq birincilik keçirilib. Yarışın ilk günündə 2006-2008-ci illər təvəllüdlü, ikinci günündə isə 2003-2005-ci illər təvəllüdlü idmançılar tatami üzərinə çıxıblar. 15 komandanın təmsil olunduğu yarışda "Kano" peşəkar cüdo klubu komanda hesabında birinci olub. Qaliblər diplom, medal və kuboklarla təltif olunublar.

# Ölkə çempionatının qalibləri müəyyənləşib

Azərbaycan Texniki Universitetinin İdman Sarayında qılıncoynatma üzrə ölkə çempionatı keçirilib. Azərbaycan Qılıncoynatma Federasiyasının (AQF) baş katibi Vasif Məmmədov iştirakçıları salamlayaraq, yarışları açıq elan edib. Beynəlxalq Qılıncoynatma Federasiyasının müvafiq qaydalarına uyğun keçirilən çempionatda 73 idmançı sablya, rapira və şpaqa növlərində mübarizə aparıblar. Sablya növü üzrə kişilərin mübarizəsində Abdulla Həsənov, qadınlar arasında isə Sevil Bünyatova qızıl medala sahib olublar. Rahim Əmirov və Məhin Məlikova rapira yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Şpaqa növündə isə Barat Quliyev və Elmira Xudaverdiyeva fərqləniblər.

Çempionatın qalibləri AQF tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

“Uşaq və gənclərin fiziki və mənəvi inkişafı”

# Namiq Abdullayev:
## “Gənclərimiz Olimpiya çempionlarına bənzəmək istəyirlər”

***Ölkə başçılarının şərəfinə dövlət bayrağı qaldırılır, himn səslənir. Dövlət başçılarından sonra bu şərəfə sahib olan uğur qazanan idmançılardır. Azərbaycanı beynəlxalq aləmdə tanıtdıran, sevdirən, onun nüfuzunu yüksəldən idmançıları məhz bu səbəbdən çox sevirik. Həyat və karyeraları gənc nəsil üçün örnək olan tanınmış idmançılarımız bir növ, ideala çevrilirlər.***

***Redaksiyamızın qonağı öz ciddiliyi, təmkinliliyi ilə seçilən sərbəst güləş üzrə Olimpiya çempionumuz Namiq Abdullayevdir. Onunla çoxdan görüşmək istəsək də, söhbətimiz dekabrın 15-də Milli Olimpiya Komitəsinin inzibati binasında keçirilən “İslam həmrəyliyi və ədalətli oyunlar” mövzusunda keçirilən konfransdan sonra baş tutdu. Həmişə olduğu kimi, harasa tələsirdi. Bununla belə, suallarımızı cavablandırdı.***



***- Namiq müəllim, iş qrafikiniz çox gərgindir. Necə çatdırırsınız?***

- Olimpiya çempionu, Azərbaycan Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Güləş Federasiyasının (yeniyetmələr üzrə) vitse-prezidenti kimi bir çox tədbirlərdə iştirak edirəm. İlin sonunda belə tədbirlərin sayı daha çox olur. Çalışıram ki, dəvət aldığım bütün mühüm tədbirlərdə iştirak edim.

***- Siz həm də DİN idman komandasının rəhbərisiniz...***

- Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) idman komandasına rəhbərlik edirəm. Komandada nailiyyətləri olan və yaşı 19-dan yuxarı idmançılarımız yer alıblar. Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında uğur əldə edən idmançılar müvafiq göstəriş üzrə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasına (ADBTİA) qəbul olunur və burada təhsillərini başa vurduqdan 4 il sonra hərbi xidmətə çağırılırlar. Hərbi xidmət zamanı belə idmançılarımız üçün hərtərəfli şərait yaradılır ki, onlar uğurlarını davam etdirə bilsinlər. Əsgəri xidmətdə olan onlarla, yüzlərlə idmançımız Azərbaycanı beynəlxalq yarışlarda şərəflə təmsil edir, bayrağımızı yüksəklərə qaldırırlar.

***- Ölkə əhalisinin 70 faizini gənclər təşkil edir və bu səbəbdən onlara daha çox diqqət yetirmək lazım gəlir. Necə düşünürsünüz?.***

- Dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev 1995-ci ilin martında ölkə gəncləri ilə görüşərkən onların sağlam ruhda tərbiyə almaları və əsl vətəndaş kimi yetişmələri naminə əlindən gələni əsirgəməyəcəyini bildirmişdi. 1996-cı ildən etibarən ulu öndərin təşəbbüsü ilə gənclərin forumlarının keçirilməsi, Gənclər Fondunun yaradılması, ölkədə gənclər gününün qeyd olunması, gənclərimizin problemlərinin həllinə yönələn Fərman və Sərəncamların verilməsi, onların dövlət quruculuğu prosesinə cəlb edilməsi, müvafiq qanunların qəbulu deyilənləri reallığa çevirdi. Bu siyasət indi də davam etdirilir. Hazırda ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir.

***- İdman nədir və nəyə görə onu sevməliyik?***

- İdman sağlamlıq və uzun ömür deməkdir. İnsan idman vasitəsilə həm bədənini möhkəmlədir, həm də stresdən azad olur. Necə deyərlər, sağlam bədəndə sağlam ruh olar. Yaşından, çalışdığı işindən, peşəsindən asılı olmayaraq hər bir insan idman və bədən tərbiyəsi ilə məşğul olsa, daha yaxşıdır. Bunun üçün ölkəmizdə hər cür şərait yaradılıb.

***- İdman sizin həyatınızda hansı rolu oynayır?***

- Əldə etdiyim uğurları və nailiyyətləri idmanın sayəsində qazanmışam.

### “Futbolu daha çox sevirdim”

***- Güləşlə neçə yaşından məşğul olursunuz?***

- 9-10 yaşımdan idmana böyük həvəsim olub. Amma, əvvəlcə, futbolu daha çox sevirdim. Bütün günü top qovurdum. Valideynlərim mənim futbolla məşğul olmağımı istəmirdilər. Çünki təhsilimə mənfi təsir edəcəyindən qorxurdular. Güləşlə 12 yaşından məşğul oluram.

***- Adətən idmançılar uşaq vaxtı dəcəl olduqları üçün bu sahəyə gəlirlər. Siz necə?***

- Sağlam uşaqlar, təbii ki, dəcəl olurlar. Mən də həmçinin. Amma idmana gedəndən sonra məşqçi müəllimlərimdən enerjini boş yerə sərf etməməyi öyrəndim. Öyrəndim ki, özündən zəifə əl qaldırmaq, ədalətsizlik etmək olmaz. İdman aqressiya yox, mədəniyyətdir.

***- Çoxuşaqlı ailədə böyümüsünüz...***

- Ailədə 9 uşaq olmuşuq - 4 bacı, 5 qardaş. Əslimiz Xızı rayonundandır. Atam rəhmətə gedib, amma anam həyatdadır. Allah bütün valideynlərə can sağlığı versin. Çoxuşaqlı ailələrdə mehribançılıq, sevgi, qayğı olur həmişə. Ailədə mehribançılığın olması valideynlərdən asılıdır. Ailə kiçik dövlətdir. Burada təməl, bünövrə nə qədər möhkəm olarsa, həmin ailənin yetirmələri də həyatda özünə düzgün yer tapacaq və cəmiyyətə, xalqa gərəkli olacaqlar. Biz ağbirçəyə, ağsaqqala hörmət etməyi, kiçiklərə məhəbbət göstərməyi ailədə öyrənirik. Evdə valideyninə hörmət etməyən uşaq və ya gənc cəmiyyətdə kimə hörmət edəcək?

***- Yəni gənc nəslin tərbiyəsində yük yalnız ailənin üzərinə düşür?***

- Təbii ki, ailədən sonra uşağın tərbiyəsində bağça və məktəb də böyük rol oynayır. Orta məktəbdə oxuduğum illəri xatırlayıram. Müəllimlərimizin hər bir sözü bizim üçün qanun idi. Çalışırdıq ki, onların dediklərini yerinə yetirək. Çünki müəllim insana düz yolu göstərir, bilik, savad verir, gələcək həyata hazırlayır. İdmana gedəndən sonra məşq müəllimlərimizin dediklərinə əməl etməyə çalışırdıq. Tərbiyə işi kompleks şəkildə aparılanda daha yaxşı və səmərəli nəticə verir. Belə olan halda gələcəyimiz olan uşaq və gənclər həyatda özünə düzgün yol seçir və mənalı ömür yaşayırlar. Sonra onlar cəmiyyətdə seçilən və tanınan insanlara çevrilirlər.

***- Sizcə, həyatın mənası nədədir?***

- Ədalətli, səbirli olmaq, haqqı nahaqdan ayırmağı bacarmaq.

***- İdmanda ədalətsizliklə çoxmu qarşılaşmısınız?***

(gülür) O qədər. Həyatda da, idmanda da belə hallarla barışmaq lazımdır. Yaşamaq, davam etmək üçün səbrli, təmkinli olmalısan. Ədalətsizlik görəndə ruhdan düşməmək, əksinə, daha mübariz olmaq lazımdır. Qalmaqal, intriqa yaratmaq kiməsə xeyir gətirmir. Yarışda hakim sənə qarşı haqsızlıq edibsə, çalış ki, ona qarşı kin bəsləməyəsən. Növbəti yarışda daha yaxşı və səhvsiz hərəkət edəsən ki, hakim öz səhvini başa düşsün. Nailiyyət, uğur əldə etmək üçün həyatda çox şeylərə dözməli və barışmalısan.

***- İdmanda psixoloji təsir çox mühümdür. Afina-2004 Olimpiadasına az qalmış atanızı itirdiniz. Bu, sizə necə təsir etdi?***

- Afina-2004 Yay Olimpiya Oyunlarına 1 ay qalmış atamı itirdim. Psixoloji cəhətdən çox sarsılmışdım. Gərgin bir vəziyyət yaranmışdı. Azərbaycan Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiya tərəfindən mənə qarşı böyük dəstək vardı. Lakin bütün bunlara baxmayaraq, özümü ələ ala bilmirdim. Bu itki mənə də, qardaşım Arif Abdullayevə də mənfi təsir göstərdi. Yarışlarda yaxşı iştirak edə bilmədik.

***- Halbuki Sidney-2000 Olimpiadasından qalib kimi qayıdanda hava limanında sizi ilk qarşılayan atanız olmuşdu...***

- Sidneydə Olimpiya çempionu olub vətənə qayıtdıqdan sonra ailə üzvlərimdən ilk sevincimi atamla bölüşdüm. O, məni aeroportda gözləyirdi. Nə etmək olar, heç kim əbədi yaşamır. Bir gün yaranan, bir gün də dünyadan köçür. Bu, həyatın qanunudur. Sadəcə, valideynlərimizin də, yaxınlarımızın da sağlığında qədrini bilmək lazımdır.

***- Necə düşünürsünüz, indiki idmançıların bəxti çox gətirib?***

-Keçmişə qayıtmaq istəyirəm. Postsovet məkanında idmançılar beynəlxalq yarışlarda SSRİ-nin bayrağı altında yarışırdılar. 1990-cı ildə Dünya kuboku yarışlarının, 1991-ci ildə SSRİ, 1992-ci ildə MDB çempionatının qalibi olmuşam, dəfələrlə mükafatalayiq yerləri tutmuşam. Qələbə qazananda SSRİ-nin bayrağı qalxıb, himni səslənib. Bugünkü idmançılarımız çox xoşbəxtdirlər ki, müstəqil Azərbaycanın üçrəngli bayrağının altında çıxış edir, qələbələr qazanırlar.

Komandamız 1992-ci ildə keçirilən Barselona Olimpiadasında MDB-nin tərkibində Azərbaycan bayrağı altında iştirak etdi. Təəssüf ki, müəyyən səbəblərdən mən bu yarışlarda iştirak edə bilmədim. 1993-cü ildə xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin xüsusi diqqəti və qayğısı sayəsində, başqa sahələrdə olduğu kimi, bədən tərbiyəsi və idman sahəsində də ciddi dönüş yaradıldı. Məhz Heydər Əliyevin Fərmanı ilə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması mühüm hadisə idi. İdmançıların təlim-məşq toplanışlarının təşkili və eləcə də, yarışlarda iştirakı üçün nə lazımdırsa, edildi. İdman bazaları bərpa edildi, yeniləri yaradıldı. Heydər Əliyev həmin illərdə idmançılarla görüşlərinin birində dedi: “Azərbaycan Prezidenti kimi mən şəxsən söz vermişəm və indi də bunu təsdiq edirəm ki, idmana xüsusi qayğını öz üzərimə götürürəm. Azərbaycan gənclərinə xüsusi qayğını öz üzərimə götürmüşəm və əmin ola bilərsiniz ki, bu qayğını daim hiss edəcəksiniz”.



***- Namiq müəllim, yeri gəlmişkən, ümummilli liderlə görüşlərinizi necə xatırlayırsınız?***

- 1994-cü ildə mən Avropa çempionu titulunu və dünya çempionatının gümüş medalını qazanmışdım. İlin sonunda dahi şəxsiyyət idmançılarla görüşərək bizə mükafat verdi. 1995-ci ildə isə Avropa və dünya çempionatlarında uğur qazanan idmançılar ölkə rəhbəri tərəfindən “Tərəqqi” və “Şöhrət” ordeni ilə təltif edildilər. Zemfira xanım və mən “Tərəqqi” medalı, Nazim Hüseynov isə “Şöhrət” ordeni ilə mükafatlandırıldıq. Başqa idmançılar da mükafat aldılar. 1996-cı ildə Atlanta Olimpiadasına dövlət səviyyəsində hazırlıq aparılırdı. Komandamız Atlanta-1996 Olimpiadasına 23 lisenziya qazanmışdı. Zuğulbada olimpiadada iştirak edəcək heyətlə görüş keçirilirdi. Ümummilli lider idmançılara uğurlar arzulayaraq öz tövsiyələrini verdi. İdmançılarımız dövlət başçısına söz verdilər ki, Azərbaycanın müstəqil ölkə kimi ilk dəfə təmsil olunduğu Atlanta-1996 Olimpiadasında yaxşı nəticələr göstərəcək və ölkəmizi layiqincə təmsil edəcəklər. Şükürlər olsun ki, Olimpiya komandamız ümidləri doğrultdu.

### “Ulu öndərə söz vermişdim”

***- Ulu öndər sizin gümüş medalınızı qızıl medal kimi dəyərləndirdi.***

- Olimpiadada ilk dəfə müstəqil ölkə kimi təmsil olunan Azərbaycan idmançısının gümüş medal qazanması böyük uğur idi. Ölkəmiz medal alan 197 ölkə arasında 61-ci yeri tutdu. Mən komandanın ən yüngül çəkili güləşçisi kimi fəxri kürsünün ikinci pilləsində yer aldım. Bu, Azərbaycan pəhləvanlarının Olimpiya oyunlarında sərbəst güləş üzrə qazandıqları ikinci, müstəqil Azərbaycan bayrağı altında əldə edilmiş birinci medalı oldu. Mən yarışlarda finala qədər rəqiblərə heç bir şans verməmişdim. Finalda Bolqarıstan təmsilçisi Valentin Yordanovla qarşılaşdım. Yaxşı güləşməyimə baxmayaraq, hakimlər ədalətsizlik göstərərək qələbəni rəqibə verdilər. Bu görüşü izləyən Heydər Əliyev idmançıları qəbul edəndə dedi: “Namiq Abdullayevin gümüş medalı qızıla bərabərdir”.

***- Bu zaman hansı hissləri keçirirdiniz?***

- Böyük qürur hissi idi ki, ulu öndərimiz biz idmançılara bu qədər diqqət və qayğı göstərirdi. Bu yalnız mənə deyil, idmanımıza göstərilən diqqət idi. Mən ulu öndərlə görüşəndə ona söz verdim ki, Sidney-2000 Olimpiya Oyunlarında mütləq qızıl medal qazanacağam. Mən bunu istəyirdim, özü də çox istəyirdim. Çünki ulu öndərə söz vermişdim.

Ölkəmizdə hər bir sahəyə olduğu kimi, idman sahəsinə olan diqqət və qayğı təqdirəlayiqdir. Əsası ulu öndər tərəfindən qoyulan dövlət siyasəti Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanda idman və Olimpiya Hərəkatının yeni dövrü 1997-ci ildən başlanır. İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra ölkədə idman böyük sürətlə inkişaf etməyə başladı. Milli Olimpiya Komitəsinin prezidenti elə ilk gündən bir sıra islahatlar həyata keçirdi. Qısa müddət ərzində milli federasiyalarda dəyişikliklər aparıldı, işə təcrübəli və peşəkar məşqçilər cəlb olundu.

2000-ci ilə Sidneydə keçirilən XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan idmançıları uğurla çıxış etdilər. Mən və Zemfira Meftexetdinova Olimpiya çempionu tituluna layiq görüldük. Boksçumuz Vüqar Ələkbərov bürünc medal qazandı. Ölkəmiz 3 medalla 34-cü yeri tutdu. Ulu öndərə verdiyim sözü yerinə yetirdiyim üçün çox xoşbəxt idim.

***- Təbii ki, əldə olunan bu uğurlar uşaq və gənclərimizdə idmana böyük maraq oyadırdı...***

- Azərbaycanın müstəqil ölkə kimi iştirak etdiyi Atlanta-1996 və Sidney-2000 Oyunlarında əldə etdiyi nəticələr respublikamızın böyük idman potensialına malik olduğunu göstərdi. Təbii ki, idmançılarımızın qazandıqları uğurlar gənc nəslə təsir etməyə bilməzdi. Olimpiadadan sonra valideynlər övladlarını idman zallarına gətirir, müxtəlif bölmələrə yazdırırdılar. Onlar istəyirdilər ki, övladları Nazim Hüseynov, Zemfira Meftexetdinova, Namiq Abdullayev kimi olimpiadalarda uğur qazansınlar, bayrağımızı qaldırsınlar. Bu ənənə indi də davam edir. Təsəvvür edin, həmin vaxtdan 17 il keçib və Olimpiya çempionlarımızın, mükafatçılarımızın sayı artmaqda davam edir. İldən-ilə qazanılan medalların sayı da artır. London-2012-də 12 medal qazanmışdıqsa, Rio-2016-da 18 medal əldə edildi. İnkişaf və yüksəliş olan sahəyə həmişə maraq var və olacaq. Diqqət olan sahədə hər zaman yüksəliş var. Müasir gənclərimiz də Olimpiya çempionlarını özlərinə örnək seçir və onlara bənzəmək istəyirlər.

***- Necə düşünürsünüz, idman, həm də siyasət deməkdir?***

- İdman yarışları, həm də ölkələrin iqtisadi və siyasi gücünü, mədəni səviyyəsini ortaya qoyur. İdman, həm də ölkələr arasında rəqabət deməkdir. Ölkəmiz 2015-ci ildə I Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə ev sahibliyi etdi. Bu yarışlarda təşkilatçılığı ilə fərqlənən Azərbaycan Avropa ölkələri arasında 2-ci, islam ölkələri arasında 1-ci oldu.

***- Siz də ikinci ali təhsil alan idmançılardansınız?.***

- İlk ali təhsilimi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında almışam. Sonra Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişəm.

### “Səbr etməsən nə həyatda, nə də idmanda heç bir uğur əldə edə bilməzsən”

***- Çox səbirli və təmkin insansınız. Bu nədən irəli gəlir?***

- Məndə olan bütün yaxşı cəhətlər üçün ailəmə borcluyam. Çünki belə tərbiyə almışam. Təbii ki, xarakterin də rolu var. Düşünürəm ki, nə qədər ciddi, təmkinli xasiyyətin olsa da, düzgün tərbiyə almayanda nəticəsi olmur. Səbr Allahın adıdır. Səbr etməsən, təmkinli olmasan, nə həyatda, nə də idmanda heç bir uğur əldə edə bilməzsən.

***- Heç əsəbləşmirsiniz?***

- (fikirləşir) Hər bir normal insan kimi mən də hövsələdən çıxıram. Amma əsəbi halımda öz hisslərimi cilovlaya bilirəm. Çalışıram ki, bunu biruzə verməyim.

***- Evdə də ciddisiniz?***

- Deməzdim. Ciddiliyin də, zarafatın da sərhədi vardır. Ölçünü gözləyəsən gərək.

***- Övladlarınız varmı?***

- İki qız övladım var.

***- Siz həm də stabilliyi sevən insansınız?***

- Mən bir yedə qərar tutmağı bacaran insanlardanam. İstər idman sahəsində, istər başqa işdə. Hərbi xidmətdən əvvəl “Neftçi” İdman Cəmiyyətində məşğul olmuşam. Əsgərlikdən sonra 1994-cü ildə “Dinamo”ya keçmişəm və o gündən bu günə həmin cəmiyyətdə çalışıram. 2000-ci ildən Daxili İşlər Nazirliyinin daxili qoşunlar idman komandasına rəhbərlik edirəm. Polkovnik rütbəsindəyəm.

***- Peşəkar idmançı olmaq çox çətindirmi?***

- Böyük idmanda qalmaq və irəli getmək üçün çox şeylərdən vaz keçməlisən, qida rejimindən tutmuş həyat tərzinə kimi. Peşəkar idmanda dostlarla görüşmək, əylənmək üçün vaxt qalmır. Nailiyyət əldə etmək, Olimpiya, dünya və Avropa çempionu olmaq üçün mütləq müəyyən rejimə riayət etməlisən və çərçivədən kənara çıxmamalısan.

***- Təhsil və idmanı biri-birindən ayırmaq mümkündürmü?***

- Biri digərindən ayrılıqda mümkün deyil. İnsanı idarə edən və yönəldən beyindir. Beyin, zəka güclü olmasa, bədən heç nə edə bilməz. Fiziki güc, təfəkkür vəhdət təşkil etməlidir. Hər bir uşaq və gənc savadlı olmalı, daim maariflənməyə can atmalıdır.

***- Mənalı ömür yaşamaq üçün nə lazımdır?***

- Həyatımın mənasını idmanda görürəm. Düşünürəm ki, başqa sahədə də çalışsaydım, yenə mənalı ömür yaşayardım.

***- Bəziləri uğur qazanandan sonra müəyyən mənada dəyişirlər. Buna münasibətiniz?***

- Atalar məsəlində deyildiyi kimi, ağac nə qədər bar versə, başını bir o qədər aşağı dikər. İnsan öz yerini bilməli, ona edilən yaxşılıqları unutmamalı, sədaqətli olmalıdır.

***- Əsl dost nə deməkdir?***

- Əsl dost seçilməlidir. Belə dostlarım var və onlar illərin sınağından keçib.

***- Mütaliəni xoşlayırsınız?***

- Vaxtım olanda roman, detektiv janrda kitab oxumağı çox xoşlayıram.

***- Bəs musiqi, kino?***

- Muğamı daha çox sevirəm. Xüsusilə, dünya şöhrətli xanəndəmiz Alim Qasımovun ifasını çox bəyənirəm.

Kinoya gəlincə, retro kinolardan “O olmasın, bu olsun” filmini şah əsər adlandırardım. “Dədə Qorqud”, “Arxadan vurulan zərbə”, “Axırıncı aşırım” ekran əsərləri bu gün də hamı tərəfindən sevilir.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

*Unutsaq, unudularıq*

# Azərbaycan boksunun rinq ustaları

***Daimi oxucularımız yaxşı xatırlayar ki, bir müddət əvvəl qəzetdə "Azərbaycan boksunun unudulmaz simaları" rubrikası altında yazılar dərc olunmuşdu. Biz bununla uzaq keçmişə, boksun şanlı tarixinə ətraflı nəzər salmışdıq.***

***İndiki nəslin bir sıra boksçuları, eləcə də, bəzi məqşəçilər nisbətən yaxın keçmişimizin rinq ustaları barəsində çox az məlumata malikdirlər. Bu sayımızdan etibarən "Azərbaycan boksunun rinq ustaları" rubrikası altında boksçularımızla bağlı yeni yazıları oxuculara təqdim edirik.***

## Şahin Nik - Nicat Barat oğlu

1960-cı il iyulun 18-də Gəncə şəhərində anadan olub. Hələ məktəb illərindən etibarən "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boksun sirlərinə yiyələnib. O, məşqçi Arif Zeynalovun rəhbərliyi altında bu növlə məşğul olub. Şahin Nik-Nicat 8 il ərzində bir sıra respublika və ümumiittifaq yarışlarda uğurlar qazanıb. Gənclər arasında respublika birinciliyinin qalibi (1978-ci il), Azərbaycan çempionu (1980-1981-ci illər), ümumittifaq "Ehtiyat Əmək Qüvvələri" İdman Cəmiyyəti Mərkəzi Şurası birinciliyinin bürünc (1980-ci ildə) və M.Mazay turnirinin (1981-ci il) gümüş mükafatçısı adını qazanıb.

O, 1984-cü ildə AZDBTİA-nın məzunu adına layiq görülüb. Hazırda Gəncə 2 saylı UGİM-də məşqçi müəllim kimi fəaliyyət göstərir. Onun yetirmələri respublika və beynəlxalq yarışlarda iştirak edir və uğurlar qazanırlar. Belə ki, Aslan Bayramov yeniyetmələrin Dünya birinciliyində bütün rəqiblərinə qalib gələrək qızıl medala layıq görülüb. Aslan Bayramov bu nəticə ilə Azərbaycan boks tarixinidə yeni bir səhifə açıb. O, ilk yeniyetmə boksçumuz idi ki, dünya birinciliyinin qalibi adını qazanıb.

Qeyd edək ki, Şahin Nik-Nicat Əməkdar məşqçi, SSRİ idman ustası, Azərbaycan Respublikasının Əməkdar məşqçisi və milli dərəcəli hakim adlarına layıq görülüb.

## Ravil Cahanşah oğlu Yenikeyev

1941-ci il iyul ayının 17-də Bakı şəhərində anadan olub. 1955-1970-ci illərdə "Neftçi" idman Cəmiyyətində Əməkdar məşqçi Leonid Krivonos və Viktor Yuzaninin rəhbərliyi altında boks idman növü ilə məşğul olub. Bu müddət ərzində gənc boksçu dəfələrlə respublika və ümumittifaq yarışlarında iştirak etməklə yüksək nəticələr qazanıb. O, 1964-1965-ci illərdə Azərbaycan çempionu adına layiq görülüb. 1965-ci ildə Ümumittifaq Həmkarlar İttifaqı Mərkəzi Şurasının birinciliyində isə bürünc medala yiyələnib.

Ravin Yenikeyev SSRİ idman ustası adını 1966-cı ildə qazanıb. 1974-cü ildə AZDBTİA-nı bitirən idmançımız 1966-cı ildən 1978-ci ilə kimi "Neftçi" İC-də məşqçi vəzifəsində çalışıb. Sonralar AZDBTİA-da ağırlıqqaldırma və boks kafedrasında laborant vəzifəsində fəaliyyət göstərib. 2010-cu ildən bu günə kimi "Spartak" idman cəmiyyətinin boks bölməsində məşqçi işləyir.

Boks mütəxəssisi Azərbaycan Respublikasının Əməkdar məşqçisi və beynəlxalq dərəcəli hakim adına layiq görülüb.

## Vüqar Fərman oğlu Xudayev

1965-ci il yanvar ayının 30-da Gəncə şəhərində anadan olub. 10 yaşından etibarən Gəncə şəhərində "Ehtiyat Əmək Qüvvələri" idman cəmiyyətində boksla məşğul olmağa başlayıb. Məşqçisi Arif Zeynalov olub. Vüqar Xudayev 1975-1988-ci illərdə bir sıra yarışlarda iştirak edərək uğurlar qazanıb və SSRİ idman ustası adına layiq görülüb. SSRİ-nin və Azərbaycanın gənclərdən ibarət yığma komandasının tərkibində ümumittifaq, beynəlxalq yarışlarda ölkəmizi təmsil edən idmançımız ona bəslənilən ümidləri doğruldub. Boksçumuz bir sıra yarışlarda mükafatalayiq nəticələr göstərib. 1993-cü ildə Rusiyanın Samara şəhərindəki İqtisadiyyat İnstitutunu bitirən Xudayev hazırda Samux rayonunda "Paşa Holding" şirkətində təhlükəsizlik xidmətinin rəisi vəzifəsində çalışır.







## Balahəsən Seyfulla oğlu Eynullayev

1943-cü il iyulun 5-də Bakı şəhərinin Bülbülə qəsəbəsində anadan olub. 1957-ci ildə Balahəsən Eynullayev "Neftçi" İdman Cəmiyyətində məşqlərə başlayıb. Onun ilk məşqçisi Ağacan Abiyev olub. Sonralar o öz idman ustalığını "Burevestnik" və "Dinamo" idman cəmiyyətlərində artırıb. 11 dəfə Azərbaycan çempionu adını qazanıb. Qazaxda təşkil olunan "Respublika komsomolu" mükafatı uğrunda keçirilən ümumi turnirdə gümüş, Ümumittifaq Tələbə Oyunlarında (1964) bürünc, SSRİ birinciliyinin zona yarışında (1965) gümüş, "Burevestnik" idman cəmiyyətinin Mərkəzi Şurasının ümumittifaq birinciliyində qızıl (1966) və bürünc (1968), "Dinamo" İC-nin Mərkəzi Şurasının Ümumittifaq birinciliyində isə gümüş medallara layiq görülüb. Müxtəlif illərdə Finlandiyada, Kambocada və Azərbaycanda keçirilən beynəlxalq görüşlərdə mükafatçılar sırasında yer alıb.

Balahəsən Eynullayev idmanda göstərdiyi yüksək nəticələrə görə SSRİ fəxri idman ustası, Azərbaycanın Əməkdar məşqçisi, Əməkdar bədən tərbiyəsi və idman xadimi və beynəlxalq dərəcəli hakim adlarına layiq görülüb.

Azərbaycan Neft və Kimya İnstitutunun məzunu olan Balahəsən Eynullayev sonralar öz həyatını yeniyetmə və gənc boksçuların tərbiyəsinə, yüksək dərəcəli idmançıların yetişdirilməsinə sərf edib. Uzun illər "Dinamo" və "Təhsil" idman mərkəzlərində məşqçi - müəllim kimi fəaliyyət göstərib, onlarla Ümumittifaq və beynəlxalq yarışların qalibi və mükafatçılarının hazırlanmasında xüsusi rol oynayıb.

## Ağahəsən Seyfulla oğlu Eynullayev

1937-ci il avqust ayının 29-da Bakı şəhərində Bülbülə qəsəbəsində dünyaya göz açıb. 14 yaşında ikən "Neftçi" İC-də boks bölməsinə yazılan Ağahəsən Eynullayev məşqçi Oleq Kuxarenkonun rəhbərliyi altında məşqlərə başlayıb, 1961-ci ilə kimi özünü rinqdə sınayıb.İlk illərdən etibarən fiziki hazırlığı və döyüş keyfiyyətləri həmişə məşqçilərin diqqətini cəlb edib. Rinqdə keçirdiyi döyüşlərdə həmişə öz texniki-taktiki üstünlüyü ilə seçilən idmançı respublika yığma komandasına daxil edildikdən sonra bir çox yarışlarda Azərbaycanı təmsil edib.

O, 1958-1959-cu illərdə Azərbaycan çempionu, 1959-1961-ci illərdə Bakı şəhər çempionu, Azərbaycan - Almaniya (1960) və Azərbaycan - Finlandiya (1961) komandalarının arasında görüşlərin qalibi olub. 1960-cı ildə SSRİ idman ustası adına layiq görülüb. 1953-1957-ci ildə Bakı Neft Texnikumunda, 1958-1963-cü ildə isə AZDBTİA-da təhsil alıb.

Əmək fəaliyyətinə 1958-ci ildə "Aztemneft"dəki qazma idarəsində texnik vəzifəsində başlayan Ağahəsən Eynullayev 1968-2011-ci illərdə isə Suraxanı rayonundakı 279 saylı tam orta məktəbdə idman müəllimi kimi çalışıb. O, milli dərəcəli boks hakimidir.

## Vətən Ədalət oğlu Hüseyinli

Vətən Hüseyinli 1992-ci il iyun 13-də Bakı şəhərində anadan olub. 2005-ci ildə "Rabitə" İdman Cəmiyyətinə gələrək boks bölməsinə yazılaraq, Əməkdar məşqçi Rasim Məmmədovun rəhbərliyi altında məşqlərə başlayıb.

Dəfələrlə Bakı və Azərbaycan çempionatlarının, beynəlxalq turnirlərin qalibi olan boksçumuz əsas uğurları 2012-ci ildən başlayıb. Türkiyənin Trabzon şəhərində keçirilən və Olimpiya oyunlarına lisenziya verən beynəlxalq turnirdə Vətən gümüş medal qazanıb, London-2012 Yay Olimpiya Oyunlarında ölkəmizi təmsil edib. İdman ustasıdır.

## Etibar Yəhyə oğlu Alıyev

Etibar Alıyev 1975-ci il avqustun 15-də Ermənistanın Krasnoselo rayonunda anadan olub. Boksla 1982-ci ildə Bakının "Neftçi" idman cəmiyyətində məşğul olmağa başlayıb. O, Azərbaycan Respublikasının Əməkdar məşqçisi Vahid Vəliyevin rəhbərliyi altında çalışıb. 1994-cü ildə Azərbaycan çempionu, 1997-ci ildə İstanbulda keçirilən Əhməd Comərd beynəlxalq turnirinin qalibi, 1999-cu ildə Xorvatiyada təşkil olunan Silahlı Qüvvələrin Olimpiadasında isə bürünc mükafatçı adını qazanıb. 2000-ci ildə ona idman ustası adı verilib. Milli dərəcəli hakim adını daşıyan Etibar Alıyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunudur.

*(ardı var)*

***Tofiq Babanlı,***
***Azərbaycan Respublikasının Əməkdar idman xadimi, dosent***

*Güləş*

# *Balakəndə XI Respublika Oyunlarının final mərhələsi keçirilib*

Balakən Olimpiya İdman Kompleksində yeniyetmə güləşçilər arasında XI Respublika Oyunlarının final mərhələsi keçirilib. Yarışda şəhər və rayonlardan, klublardan və cəmiyyətlərdən 160-dək yunan-Roma güləşçisi birincilik uğrunda mübarizə aparıb.



Əvvəlcə güləşçilərin paradı olub.

Yarışın açılış mərasimində Balakən rayon gənclər və idman idarəsinin rəisi Rasim Paçalov Azərbaycanda idmana göstərilən dövlət qayğısından, güləşçilərimizin beynəlxalq arenada qazandıqları nailiyyətlərdən danışıb. O, yarışın növbəti dəfə Balakəndə təşkil olunmasına görə Gənclər və İdman Nazirliyinə təşəkkürünü bildirib.

Milli komandanın heyətinin formalaşdırılması və perspektivli idmançıların yığmaya cəlb olunması istiqamətində yarışın əhəmiyyətini yüksək qiymətləndirən Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Tofiq Eyvazov Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını vurğulayıb. Tofiq Eyvazov qeyd edib ki, Azərbaycanın irimiqyaslı yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi digər ölkələrə nümunə kimi göstərilir. "Beynəlxalq idman qurumları mötəbər yarışların təşkilini tərəddüd etmədən Azərbaycana həvalə edirlər. Azərbaycan 2015-ci ildə I Avropa Oyunlarını müvəffəqiyyətlə təşkil etməklə bir daha öz qüdrətini dünyaya göstərdi. Bu il ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarına, Formula-1 Azərbaycan Qran-prisinə və qadın voleybolçular arasında Avropa çempionatına ev sahibliyi edib. Güləşçilərimiz IV İslam Həmrəyliyi Oyunlarında qazandıqları qələbələri ilə xalqımızı sevindiriblər", - deyə Tofiq Eyvazov bildirib.

Açılış mərasimindən sonra Azərbaycanın dövlət himni səsləndirilib.

Gənclər və İdman Nazirliyinin, Azərbaycan Güləş Federasiyasının və Balakən Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı, Dünya Güləş Birliyinin mövcud qaydaları əsasında təşkil olunan yarışda güləşçilər 15 çəki dərəcəsində mübarizə aparıblar. Qaliblər diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.




# Beynəlxalq turnirə yekun vurulub

Şəmkirdə Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr edilən yeniyetmələr arasında cüdo üzrə beynəlxalq turnirə yekun vurulub. Yarış Azərbaycan Cüdo Federasiyası və Şəmkir Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilib. İki gün davam edən beynəlxalq turnirdə Bakı, Ağcabədi, Ağdam, Bərdə, Qəbələ, Göygöl, İsmayıllı, Mingəçevir, Naftalan, Salyan, Samux, Sumqayıt, Tovuz, Zaqatala və Şəmkir ilə yanaşı, Gürcüstan, Türkiyə və Latviyadan yeniyetmə cüdoçular iştirak ediblər. Çempionatda 32 komandadan 347 cüdoçu qalib adı uğrunda mübarizə aparıb. Turnirdə ümumi medal sayında UGİM-1 komandası birinci yerə layiq görülüb. "Zirvə" komandası ikinci, "Atilla" klubu isə üçüncü yeri tutub.

# Tələbə idmançıların mübarizəsi davam edir

"Gənclik "Tələbə İdman Cəmiyyəti Respublika Şurasının təşkilatçılığı ilə orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında XIII Respublika Spartakiadası davam edir. Spartakiadanın təqvim planına idmanın 6 növü - atletika, şahmat, dama, voleybol, basketbol, stolüstü tennis daxil edilib. Respublika Spartakiadası çərçivəsində keçirilən stolüstü tennis (oğlan və qız) üzrə yarışlara artıq yekun vurulub. Yarışlar Azərbaycan Dənizçilik Kollecinin idman zalında keçirilib. Qızların yarışında birinci yerə Azərbaycan Dövlət Pedaqoji Kollecinin komandası layiq görülüb. Bakı Rabitə və Nəqliyyat Kollecinin komandası ikinci, Bakı 2 Saylı Baza Tibb Kollecinin stolüstü tennisçiləri isə üçüncü olublar. Oğlanların mübarizəsində isə Azərbaycan Dövlət Pedaqoji Kollecinin komandası birinci yerə sahib çıxıb. Bakı Rabitə və Nəqliyyat Kolleci ikinci, Bakı İdarəetmə və Texnalogiya Kolleci isə üçüncü yeri tutub.



***Tofiq Xanəliyev,***
***"Gənclik" TİC RŞ-nin sədri***

# *Növbəti turun oyunları başa çatıb*



Futtennis üzrə Azərbaycan Super Liqasında ikinci turun oyunları keçirilib. "Marafon" idman klubunda əvvəlcə ilk turdan təxirə salınan qarşılaşmalar keçirilib. "A" qrupunda yer alan və liqanın favoriti sayılan "Marafon" komandası Bakının "Atletiko" kollektivini 2:0 hesabı ilə məğlub edib.

Tur çərçivəsində ikinci oyununa çıxan "Marafon" klubu "Yasamal" ilə üz-üzə gəlib. İlk setdə "Marafon" qalib gəlib. İkinci setdə "Yasamal" idmançıları hesabda irəli (10:4) olsalar da sonda qələbəni əldən veriblər. İlk dəfə bu turda tamaşaçılar önünə çıxan "A" qrupunun digər komandası "Xilə" klubu "Atletiko" ilə görüşdə məğlub olub - 0:2.

Çempionatın digər iddialı komandası, "B" qrupunda çıxış edən "Şuşa-2017" növbəti qələbəsini qazanıb. Şuşalılar bu dəfə Gəncəni təmsil edən "Xəmsəfan"nı hər iki setdə məğlub ediblər. Futtennis üzrə Azərbaycan kubokunun qalibi olan "Neftçi İK" isə "Meqa" komandasına qalib gələrək turu üç xalla başa vurub. Gün ərzində ikinci görüşünə çıxan "Meqa" bu dəfə də "Şuşa-2017" ilə oyunda məğlub olub.

Futbol

# Paralel yol gedənlər:
## Pep Qvardiola və Joze Mourinyo



*Mobil İSMAYILOV*

Milyonların sevdiyi futbolda həm də bir baş məşqçi sirri-sehri var. Azarkeşlər, tamaşaçılar həmişə arzulayırlar ki, sevimli komandalarının yaxşı, uğurlu bir baş məşqçisi olsun. Komandanın rəhbərliyi də daim çalışır ki, kluba sayılıb-seçilən, tanınmış bir məşqçi gətirsin. Hamıya elə gəlir ki, necə deyərlər, “sərkərdənin” adı, nüfuzu, xarakteri, bacarığı çox şeyi həll edir. Bu, hər zaman belə olub, indi də belədir. Ürəkləri fəth eləyən, insanları “tilsimləyən” futbol durduqca, baş məşqçi məsələsi həmişə diqqət mərkəzində qalacaq. Bəli, möcüzəli-sirli futbolda bir baş məşqçi fenomeni də var...

Bugünkü futbol dünyasında müxtəlif vaxtlarda iz qoyan, diqqəti çəkən, tamaşaçı marağının mərkəzində olan kifayət qədər tanınmış, adlı-sanlı, samballı məşqçilər var. Təbii ki, belə nüfuzlu məşqçilərin həyat missiyası məhz, əsl futboldur. Onların “xəmiri” sanki futboldan yoğrulub. Belə məşqçilərin fəaliyyəti hardansa başlayan və hardasa bitən bir yoldur. Sanki bu cür mütəxəssislərin məşqçilik yolu ürəklərdən keçir. Ona görə də o iz, o yol itmir. Həmişə futbolsevərlərin yaddaşında qalır...

İllər, futbol mövsümləri bir-birini əvəz edir. Futbol tarixinə möhürünü vurmuş belə məşqçilərin təbii ki, hər mövsümdə, müəyyən yaşda öz uğuru, “qızıl dövrləri”, yadda qalan xatirələri, unudulmaz oyunları, əlamətdar günləri olur. Şübhəsiz ki, onların məşqçilik marafonu çox maraqlıdır. Bu marafonda kimin kim olduğu və kimin hansı mərtəbədə dayandığını görmək mümkündür. Bu mənada Lobanovski, Luis Felipe Skolari, Yupp Haynkes, Del Boske, Mirça Luçesku, Aleks Fergüsson, Marçello Lippi, Fabio Kapello, Arsen Venger, Fatih Terim, Mannuel Pelleqrini, Van Qall, Rafael Benites, Yoahim Löv, Yuri Syomin, Şenol Günəş, Ernesto Valverde, Massimillano Alleqri, Luçiano Spalletti, Joze Mourinyo, Pep Qvardiola mənim siyahımdadırlar... Əminəm ki, lap yaxın illərdə bu siyahıya bir nəfər də əlavə olunacaq: Qurban Qurbanov! Buna inanıram!

Təqdim etdiyim yazıda siyahımda olan iki məşqçidən söhbət açacam: Mourinyo və Qvardiola. Onların məşqçilik fəaliyyətini təhlil etməklə maraqlı parallellər aparmışam. Əslində fikirlərim illər ərzində yığılan müşahidələrin məcmusudur.

### Mourinyo-Qvardiola: tələbkar, enerjili, zəhmətkeş və gözlənilməz “tryukları” sevən

Ümumiyyətlə, məşqçiləri ideallaşdırmağın, şişirtməyin, onlar barəsində mif yaratmağın əleyhinəyəm. Amma gəlin, etiraf edək ki, hər ikisi səviyyəli, samballı məşqçidir. Bu gün onların hər ikisinin bilərəkdən “şişirdilməsinə”, qabardılmasına ehtiyac da yoxdur. Özlərini sübut etmiş, əmsalı yuxarı olan məşqçilərdəndirlər. Təsadüfi deyil ki, onlar dünyanın ən yaxşı çalışdırıcılarından hesab olunurlar. Novator, öz yolu olan, fərqli düşüncələri ilə seçilən bu məşqçilər ən xoş, tərifli sözlərə layiqdirlər. Buna görə də Mourinyo-Qvardiola “dueli” həmişə maraqla, səbirsizliklə gözlənilir.

***Hər ikisinə xas olan oxşar cəhətlər.*** Həm Mourinyo, həm də Qvardiola fiziki, texniki və taktiki cəhətdən ideal komandaya yaxın kollektiv formalaşdırmağı bacarır. Daim axtarışda olan məşqçilərdir. Enerjilidirlər, zəhmət sərf edəndirlər. Rəhbərlik məharəti ilə seçilirlər. Hər ikisi tələbkardır, məşqlərdə “nəfəslərini dərməyən” futbolçuları xoşlayırlar.

Ümumiyyətlə, real düşünmək, oyunçulara düzgün istiqamət vermək, hər oyunda dəqiq qərar qəbul etmək, hissiyyatdan yararlanmaq, ağıllı fikirlərlə seçilmək, uzaqgörənlik məharəti əslində “mənim siyahıma” daxil olmuş məşqçilərin hamısına xasdır. İnadla məqsədlərinə doğru irəliləməyi sevən həm Mourinyo, həm də Qvardiola güclü hissiyyatlı, ağıllı düşüncəli, bütün mövqelərdə rəqabət yaratmağa çalışan, komandanın mübariz ruhunu qaldırmağı bacaran, taktiki cəhətdən kollektivə yeniliklər gətirən peşəkar mütəxəssis olmaqla məşqçilər “ordusunda” çoxdan möhürlərini vurmuşlar. Onların əsas prinsiplərindən biri budur ki, super, iddialı komandanın hər mövqeyində güclü futbolçular yer almalıdır. Hər ikisi işlədikləri klublarda buna cəhd ediblər və əsasən də nail olublar. Həm Mourinyo, həm də Qvardiola gözlənilməz “tryukları” sevirlər və bunları həyata keçirməyi bacarırlar. Hətta, bu “tryuklar” uğursuz olsa belə, növbəti dəfə yenə bundan çəkinmirlər.

Hər iki məşqçi oyunqabağı dəqiq plan qurmaqla futbolçulara düzgün mənzərə verməyə çalışır. Rəqib komandanın oyun üslubunu yaxşı analiz edən məşqçilərdir. İndi əslinə qalsa, demək olar ki, bütün məşqçilər oyunqabağı təhlili gündəmə gətirirlər. Amma cavab planları, ideyaları, taktiki variantları tapıb ortaya qoymaq əsas şərtdir. Bir sözlə, gözlənilməz variantlar fikirləşməkdə, yeni ideyalar tətbiq etməkdə hər ikisinə xas olan xarakterik cəhətləri müşahidə etmək mümkündür.

### Sayılıb-seçilən, samballı, səviyyəli məşqçi oyunun gedişinə müdaxilə etməyi bacarmalıdır

Müasir dövrdə oyunun gedişinə (təbii ki, söhbət oyunun hesabından gedir) təsir etməyi bacaran azsaylı məşqçilər futbol mütəxəssislərinin, idman yazarlarının, azarkeşlərin nəzərindən yayınmırlar. Belə məşqçilər həmişə diqqət mərkəzində olur. Sayılıb-seçilən, samballı, səviyyəli məşqçi oyunun gedişinə müdaxilə etməyi bacarmalıdır. Xüsusən də, əgər komanda uduzursa, yaxud hökmən qələbə lazımdırsa. Oyunun gedişinə təsir etməyi bacaran məşqçilərin fərqli müşahidə qabiliyyəti olmalıdır. Bu baxımdan Qvardiolaya, Mourinyoya, eləcə də Yoahim Lövə, Alleqriyə, Spalettiyə qibtə etmək olar. Məsələn, Luis Enrike yetkin məşqçi kimi qəbul edilsə də, məhz bu cəhətdən çətinlik çəkirdi. Vaxtı ilə belə müdaxiləni Arsen Vengerlə Rafael Benites də yaxşı bacarıblar. Ümumiyyətlə, qeyd etdiyimiz “müdaxilə” o vaxt nəticə verir ki, gərək məşqçinin planları, fikirləri, yerdəyişmə kombinasiyaları, əvəzetmələri özünü doğrultsun.

Həm Qvardiola, həm də Mourinyo həmişə nikbin, ümidverici görünürlər. Hər iki məşqçi işlədikləri komandalarda oyunçuların yeri və rolunun müəyyənləşdirilməsinin öhdəsindən asanlıqla gəliblər.

Məlumdur ki, klublarda xüsusi köməkçilər daim komandaya fayda verə biləcək variantlar, təkliflər, ideyalar, nümunələr axtarıb tapmalı və baş məşqçiyə təqdim etməlidirlər. Bu baxımdan da hər iki məşqçi köməkçiləri ilə düzgün əlaqə qurmağı və onların xidmətindən planlı, düşünülmüş və səmərəli şəkildə yararlanmağı bacarırlar. Nəhayət, həm Mourinyo, həm də Qvardiola matç ərzindəki əvəzetmə proseslərində bir qayda olaraq yanlış seçimlərə yol vermirlər. Oyunçuların əvəz olunması demək olar ki, həmişə yerinə düşür. Yəni, burada da hər ikisinin atdığı addımlar effektli olur.

### Mourinyo sərt baxışları, Qvardiola isə nəzakətli davranışları ilə seçilir

İndiki dövrdə fərqlənmək, seçilmək istəyən məşqçi gərək, necə deyərlər, özünü də oxuya bilsin, oyunu da, futbolçuları da, rəqib komandanı da. Bildiklərini öyrətməyi, anlatmağı bacarmalıdır əsl məşqçi. Bunlara nail olan məşqçi şübhəsiz ki, böyük uğurlar, yüksək nəticələr əldə edəcəkdir. Möhtəşəm illər keçirmiş hər iki məşqçinin bu istiqamətdə oxşar xüsusiyyətləri ilə yanaşı, fərqli cəhətləri, müxtəlif yanaşmaları da mövcuddur.

***Fərqli xüsusiyyətləri.*** Hər ikisi məşqçilik fəaliyyətlərinin ilk dövrlərində emosional, çılğın olub (Yurgen Klopp qədər olmasa da!). Qvardiolada bir qədər tələsiklik hiss olunsa da, gənclik illərindən başlayaraq bütün məsələlərə fərqli baxışı müşahidə edilirdi. Mourinyo elə gənclik illərindən sərt baxışları ilə seçilirdi, Qvardiola isə mülayim, nəzakətli təsir bağışlayırdı. İndi Mourinyo emosiyalarını gizlətməyi, boğmağı bacarır. Sanki Qvardiolanın da çılğın təbiəti keçib gedib. Mourinyo daha təmkinli, səbirli, soyuqqanlı görünməyə çalışsa da, hərdən turşsifəti özünü göstərir. Gizlətmirəm, təkcə turşsifətli, soyuqbaxışlı məşqçiləri deyil, ümumiyyətlə, belə insanları xoşlamıram. Qvardiola, necə deyərlər, daha “istidir”, soyuq baxışlar ona yaddır. O, qaynar ürəkli mütəxəssisdir. Buna görə də Qvardiola işlədiyi klublarda isti və səmimi mühit yaratmağa nail olur. Fikrimcə, bu keyfiyyətləri ilə Qvardiola azarkeşlərə, tamaşaçılara daha yaxın, daha doğma görünür. Bu yaxınlıq, bu doğmalıq onun nüfuzunu daha da artırır. Mourinyo sərtliyi ilə yanaşı, hətta bir az da acıdil, həm də eyham vuran məşqçi kimi də tanınır. Xüsusən, hələ də matçöncəsi müsahibələrində rəqib komandanın “bostanına daş atmağından” qalmır.

Hər iki məşqçi iddialıdır. Amma Qvardiola iddiasını büruzə vermədiyi halda, Mourinyo iddiasını nəinki heç vaxt gizlətmir, hətta qabardandır. Lakin bəzi məşqçilərdən fərqli olaraq heç birisi oyun ərzində rəftarı, davranışları, yersiz hərəkətləri (mənasız əl-qol hərəkətləri, qışqırmaları, sifətin mimikasını müxtəlif şəkillərə salınması, fit çalınması, anlaşılmaz jestlərin edilməsi və s.) ilə tamaşaçıları qıcıqlandırmır.





### “Məşqçi ünsiyyət modelini özü qurmalıdır”

Hər iki məşqçi özlərinə məxsus oyun üslubu tətbiq etməyi sevirlər. Hücum futboluna üstünlük verən Qvardiola daha hərəkətli komanda komplektləşdirməyi bacarır. Mourinyo isə əks hücumlardan yararlanmağı sevir. O, futbolçularına standart vəziyyətlərdən təhlükə yaratmaqla qol vurmağı aşılayan məşqçidir. Onun komandası əks hücumlarda və standart vəziyyətlərdə daha təhlükəli olur. Mourinyo işlədiyi klublarda həmişə müdafiəyə xüsusi diqqət yetirib. Onun komandası müdafiə olunmağı yaxşı bacarır. Mourinyonun müdafiə futboluna üstünlük verməsinə görə deyirlər ki, onun komandaları darıxdırıcı oyun göstərir (“Real” klubunda futbol ulduzlarına görə hiss olunmurdu. Amma “İnter” və “Çelsi”də açıq-aşkar görünürdü). Hətta 2016/2017-ci illər mövsümündə “Mançester Yunayted”in azarkeşləri darıxdırıcı müdafiə futboluna görə bu məşqçidən narazı qaldılar. Amma bu il “Mançester Yunayted” maraqlı, məzmunlu mövsüm keçirir. Təbii ki, nəticəyə yönələn oyunlar adətən darıxdırıcı olur. Ona görə də Mourinyonun komandalarının oyunu hərdən cansıxıcı təsir bağışlayıb. Amma bununla bağlı onun maraqlı bir açıqlaması var: “Mənə belə fikirlər bildirirlər ki, müdafiə futboluna üstünlük verirəm. Komanda maraqlı futbol göstərmir və nəticəyə oynayır. Bəli, mənim üçün nəticə önəmlidir. Məgər azarkeşlər, tamaşaçılar nəticə istəmirlər? İstənilən havada pul verib matçları izləməyə gələn tamaşaçılar da əslində nəticə istəyirlər. Ümumiyyətlə, tamaşaçılar həmişə haqlıdır. Ancaq mənə irad tutan azarkeşlərə də üzümü tutub deyirəm ki, axı, siz hər bir halda sonda nəticə, çempionluq istəyirsiniz. Mən də bunu sizlərə bəxş edirəm”.

Mourinyonun başqa bir açıqlaması da maraqlıdır: “Məlumdur ki, hər oyunda məşqçi rəqib komandaya qarşı taktiki plan qurur. Ancaq ən əsası odur ki, bu planı düzgün müəyyən edəsən. Məşqçinin bacarığı da elə buradan bilinir. Aydındır ki, bütün oyunçuların şüur, təfəkkür tərzi, düşünmə səviyyəsi eyni deyildir. Buna görə də oyunçularla normal münasibətlərin qurulması da əsas şərtdir. Ünsiyyətin düzgün qurulması isə uğurlara aparan vacib amillərdən biridir. Bu mənada məşqçidən çox şey asılıdır. Yəni, məşqçi ünsiyyət modelini özü qurmalıdır”.

### Böyük uğurlar qazanmaq istəyən məşqçi oyunçularla dostluq etməyi bacarmalıdır

Qvardiola isə bir az da qabağa gedərək nəinki oyunçularla qarşılıqlı münasibətləri tənzimləməyi bacarır, hətta onlarla dostluq edir. Müasir futbolda vəziyyət belədir ki, böyük uğurlar qazanmaq istəyən məşqçi oyunçularla dostluq etməyi bacarmalıdır. O, hansı klubda işləyibsə, futbolçular arasında gözəl atmosfer yaratmağa nail olub (Yeri gəlmişkən, məhz buna görə də Konte və Klopp oyun bitən kimi meydana girib oyunçuları təbrik edirlər). Bundan başqa, Qvardiola oyundan əvvəl nəzərdə tutduğu bəzi futboçularla ayrıca söhbət etməyi də məqsədə uyğun hesab edir. Bununla da həmin futbolçulara xüsusi motivasiya verir. Daha cavan, cəld hərəkətləri ilə seçilən Qvardiola oyunçulara impuls verən məşqçidir. O, futbolçuları səylə çalışmağa, istəkli olmağa, qələbəyə kökləyir, oyunçuların fərdi ustalıq keyfiyyətlərinin təkmilləşdirilməsinə müntəzəm surətdə xüsusi diqqət yetirir, oyundan-oyuna artım olması üçün bütün vasitələrdən, amillərdən istifadə edir.

Qvardiola yaradıcı məşqçi olduğuna görə islahat aparmağı sevəndir. Mourinyo isə öz dəsti-xətti olan müasir tipli məşqçi olsa da, klassik ənənəyə malik keyfiyyətlərini hələ də saxlayır. Qvardiola gəncliyinə xas, hələ də başından getməyən cəsarətli taktiki sxemlərə yenə də hərdən müraciət edir. Səbri tükənəndə, hisslərini cilovlaya bilməyəndə bu addımı atır. Nə qədər təəccüblü olsa da, belə taktiki gedişlər Qvardiolaya uğur gətirir. Mourinyo isə yenilikçi məqçilərdən olsa da, bir qədər ehtiyatla hərəkət edəndir.

### Mourinyodan fərqli olaraq, Qvardiola nöqsanlarını etiraf edən məşqçidir

Əsl məşqçi müəyyən situasiyalara əvvəlcədən hazırlığını görməlidir. Məşqçi komandanı çətin situasiyadan çıxartmağı bacarmalı, çıxış yolunu tapmalıdır. Belə vəziyyətləri hər iki məşqçi əvvəlcədən nəzərə alır, ancaq bu məsələlərin həlli yollarına öz baxış bucağından yanaşırlar.

Məşqçi komandanın potensialının reallaşdırılmasına tam nail olanda, böyük uğurlar qazanır. Əlbəttə, burada söhbət nəhəng klublardan gedir. Əgər komandanın potensialının tam reallaşması baş vermirsə, çempionluq uğrunda rəqabətə tab gətirmək mümkün olmur. Bu baxımdan da Qvardiola hələlik öndə gedir.

Mourinyodan fərqli olaraq, Qvardiola nöqsanlarını etiraf edən məşqçidir. O, dəfələrlə müsahibələrində bildirmişdir ki, məşqçi keçmiş oyunların səhvlərindən nəticə çıxarmalı və həmin səhvlərin, nöqsanların təkrarlanmaması üçün səmərəli tədbirlərə, vasitələrə əl atmalıdır. Mourinyo isə heç vaxt səhvlərdən, nöqsanlardan və bunların aradan qaldırılması üçün görüləcək işlərdən danışmır.

Bir zamanlar mətbuatda Mourinyonun işlədiyi komandada çox duruş gətirə bilməməsi və klubları tez-tez dəyişməsi barədə fikirlərə rast gəlinirdi. Mourinyo özü dəfələrlə bu fikirlərə aydınlıq gətirmişdir: “Bir klubda çox qalmağı sevmirəm. Bu da onunla bağlıdır ki, mən çalışdırdığım komanda ilə mümkün ola bilən bütün titulları əldə edəcəyimə əvvəlcədən əmin oluram. Bu yolda bütün potensialımı, gücümü, bacarığımı ortaya qoyuram. Qarşıya qoyulan məqsədlərə nail olduqdan sonra fikirləşirəm ki, rəhbərlik etdiyim komanda ilə nə lazımdırsa etdim. Daha arzuladığım heç nə qalmayıb. Artıq başqa klubla yeni uğurlar, nailiyyətlər qazanmaq barədə düşünməyə başlayıram”.

Əslinə qalsa, mən də Mouriyonun bu mövqeyinə haqq qazandırıram və onun fikirləri ilə razılaşıram. Bəlkə də o, daha düzgün qərar qəbul edir. Belə ki, məsələn, vaxtı ilə “Arsenal” komandası ilə möhtəşəm nailiyyətlər əldə edən Arsen Venger bu klubda həddindən artıq çox qaldı. Bütün bacardıqlarını, potensialını, gücünü “Arsenal”ın uğurları yolunda qoydu. Hazırda isə o, artıq müəyyən problemlərlə üzləşməli olur. Buna görə də təbii olaraq tez-tez tənqid hədəfinə tuş gəlir. Əlbəttə, bu yanaşmada Aleks Fergüsson istisnalıq təşkil edir.

Qvardiolanın “Barselona”da uğurlu məşqçilik fəaliyyəti kifayət qədər davam etsə də, “Bavariya”da “lövbər salması” elə də uzun çəkmədi. Düşünürəm ki, bu tip futbol mütəxəssislərinin bir komandada uzun çəkməyən məşqçilik dövrünü məqsədəuyğun bir hal və spesifik bir yanaşma kimi qiymətləndirmək olar. Çox az saylı məşqçilər var ki, hətta tanınmış futbol ulduzlarının səhvlərini çəkinmədən onların üzlərinə deyə bilirlər. Təbii ki, bu cür məşqçilərdən inciyənlər, hətta küsənlər də olur. Bəzən bu tələbkarlıq ayrı-ayrı oyunçuların xoşuna gəlmir. Amma son məqamda belə “ərköyün” futbol ulduzları da məşqçinin haqlı iradlarını qəbul edirlərsə, deməli “sərkərdə”ni də qəbul edirlər. Deməli, bu tip mütəxəssislər əsl, həqiqi məşqçilərdir. Bu baxımdan Mourinyo birinci sırada durur. Ümumiyyətlə, Mourinyo nizam-intizamı hər şeydən üstün tutan ən ciddi məşqçilərdən biridir. Müasir dövrdə məşqçinin nüfuzu böyük rol oynayır. Həm Mourinyonun, həm də Qvardiolanın imici, reputasiyası elədir ki, klub rəhbərliyi bir qayda olaraq onların təkliflərini qəbul edir, fikirləri ilə razılaşır (xüsusən transfer məsələlərində, yeni müqavilələrin bağlanmasında). Onlara sərbətslik verilir, hətta müəyyən güzəştlərə də gedilir. Hər iki məşqçi ilə futbolçular arasında nadir hallarda narazılıqlar yaranır. Hətta müəyyən narazılıqlar, uçurumlar yarandığı təqdirdə belə, klub rəhbərliyi onların mövqeyini dəstəkləməli olur. Ümumiyyətlə, məşqçi ilə klub rəhbərliyi arasında kəskin, ciddi fikir ayrılığının yaranmaması isə olduqca mühüm şərtdir.

Mourinyo “Mançester Yunayted”ə gələn kimi Runinin “erasının” artıq bitdiyini bildirərək, “Çelsi”də işləyərkən həmin klubda oynamış Romeli Lukakunun transfer edilməsi təklifini irəli sürmüşdü. Runinin İngiltərədə və Mançesterdə böyük nüfuzunu nəzərə alan klub rəhbərliyi əvvəlcə bu təklifə tərəddüdlə yanaşmışdı. Sonradan isə rəhbərlik bu təklifi qəbul etməyə məcbur oldu. Beləliklə, Mourinyonun təşəbbüsü ilə Belçika yığmasının hücumçusu 75 milyon funt-sterlinqə “Everton”dan “Mançester Yunayted”ə transfer edildi.

### Məşqçilər haqqında mif yaradılmalıdırmı?

Ümumiyyətlə, fərqli düşünən, özünə məxsus fikirləri olan insanlara həmişə rəğbətim olub. O ki qala, hələ bu cür məşqçilərə... Belələri necə deyərlər, məşqçilər içində gözə dəyən məşqçilərdir. Bu cür məşqçilər böyük mütəxəssisdirlər. Futbolu anlayan, duyan, bir məşqçi kimi özünə məxsus şəkildə çözən məşqçilər də tarixdə iz buraxırlar. Belə böyük məşqçilər örnəkdir. Qvardiola və Mourinyo kimi... Hər ikisi nadir məşqçilərdəndir ki, estetik duyuma və dərk kontekstinə malikdirlər. Yeri gəlmişkən, buraya bir qədər qəribə, həssas, başqaları kimi düşünmək istəməyən, fərqli görünən bir neçə məşqçini də əlavə etmək istərdim: Luçesku, Van Qall, Rafael Benites, Yoahim Löv, Alleqri, Spalletti, Valverde... Lakin gəlin, nəzərə alaq ki, yaxşı, yüksək səviyyəli məşqçi bütövlüyü, dəyəri real göründüyü qədər də şərti və nisbidir.

Hər oyun sınaq meydanıdır. Məşqçi də hər dəfə bu sınaqlarla qarşılaşır və sınaqlardan keçib-keçməmək faktoru ilə üz-üzə qalır. Təbii ki, bütün sınaqlar uğurla keçmir və bu sınaqlardan da həmişə qalib çıxmaq mümkün olmur. Ona görə kimliyindən asılı olmayaraq məşqçilər haqqında mif yaradılmasını da birmənalı qəbul etmirəm. Bəli, təcrübəli, samballı, səviyyəli, seçilən məşqçilər həmişə olub, bu gün də var. Özü də heç də az deyil. Dahi məşqçilər isə... Gəlin, bir az fikirləşək... Futbolla bağlı fikirlərlə, məşqçilərin mütəxəssislərin müsahibələri, rəyləri ilə həmişə xəyalən polemikaya girmişəm. Nələrisə ya təsdiq, ya da inkar etmişəm. Bəzi hallarda başqa fikirdə də olmuşam. Ya da sadəcə tərəddüd etmişəm...

Bəzən elə il olur ki, məşqçinin həyatında, fəaliyyətində işləri sevindirici, ürəkaçan getmir. Ən tanınmış, məşhur məşqçilərin avtobioqrafiyasında belə mövsümlər olur. Bəzən də məşqçinin özündən asılı olmayaraq sanki işlər tərs gətirir, bəxt ondan üz döndərir. Uğurlu, uğursuz oyunlar sanki bir-birini növbə ilə əvəz edir. Hətta problemlər yaranır və müxtəlif formalarda davam edir (bir neçə oyunçunun eyni vaxtda zədəli olması, oyunçuların ardıcıl cəza almaları və s.). Burada artıq təcrübə, səviyyə, iş üslubu, reallığa söykənən səbəblər, fərqli düşünmək, məsələlərə ağıllı münasibət bildirmək qabiliyyəti köməyə gəlmir. Fakt faktlığında, nəticə dəyişməz qalır.

Bu yazı məşqçilər dünyasına qısaca bir səyahət idi. Beləcə, sizinlə bölüşməli oldum... Vəssəlam...

FUTBOL



## İcraiyyə Komitəsinin 2017-ci il üçün son iclası keçirilib

Dekabrın 20-də "Bayıl Arena" stadionunda AFFA-nın İcraiyyə Komitəsinin iclası keçirilib. 2017-ci ilin son yığıncağının gündəliyinə bir sıra məsələlər daxil edilib. Əvvəlcə AFFA-nın prezidenti Rövnəq Abdullayev assosiasiyanın təsis olunmasının 25 illik yubileyi ilə əlaqədar komitə üzvü Kazbek Tuayevə ölkə futbolundakı səmərəli fəaliyyəti ilə bağlı diplom və xüsusi hədiyyə təqdim edib.

Gündəlikdəki məsələlərin müzakirəsindən sonra İcraiyyə Komitəsi Azərbaycan yığma komandalarının baş məşqçisi vəzifəsinə təyinatları təsdiq edib. Rəşad Sadıqov U-21 və U-20, Vüqar Məmmədov U-19, Zaur Həşimov U-18, Ramin Quliyev U-17 millisinin baş məşqçisi olub.

FİFA-nın göstərdiyi maliyyə yardımı hesabına Sumqayıt şəhər stadionunun ərazisində iki, Bakı Olimpiya Stadionunun ərazisində bir təbii ot örtüklü standart ölçülü meydan salınmasına da qərar verilib.

Həmçinin AFFA-nın Oyunçuların Statusu və Transferi Komitəsinə yeni sədr təyin olunub. Bu vəzifə Nailə Rüstəmzadəyə tapşırılıb.

İclasda "Futbol oyunlarının nəticəsinin manipulyasiyası faktları" və "Region Liqası" turniri ilə bağlı xüsusi təqdimatın müşayiəti ilə bağlı da məlumat verilib.

## Bayıl Məşq Mərkəzinin açılışı olub

AFFA-nın prezidenti Rövnəq Abdullayev və İcraiyyə Komitəsinin üzvlərinin iştirakı ilə Bayıl Məşq Mərkəzinin açılış mərasimi olub.

Rövnəq Abdullayev İcraiyyə Komitəsinin üzvləri Kazbek Tuayev və İsgəndər Cavadovla birgə rəmzi qırmızı lenti kəsdikdən sonra məşq mərkəzinə baxış keçirilib.

AFFA rəhbərliyi mərkəzdə futbolçular üçün yaradılmış şəraitlə tanış olub, fitnes zalına baxıblar. Mərkəzdəki 16 otaqda eyni zamanda 36 futbolçu və məşqçi yerləşdirmək mümkündür. Bütün otaqlarda sanitar qovşaq mövcuddur. Mərkəzdə həm də camaşırxana və kafe də fəaliyyət göstərəcək.

AFFA ilə qarşılıqlı razılıq əsasında Bayıl Məşq Mərkəzindən həm yığma komandalar, həm də "Səbail" klubu yararlana biləcək.

Bayıl Məşq Mərkəzinin inşası üçün maliyyə vəsaiti AFFA-nın müraciətinə əsasən, UEFA tərəfindən ayrılıb.

## Dino Ndlovu Çin klubuna keçə bilər

"Qarabağ" klubunun hücumçusu Dino Ndlovu karyerasını Çində davam etdirə bilər. Bu barədə məlumatı Çin mətbuatı yayıb.

Bildirilir ki, "Hançjou Qrintaun" klubu Ağdam klubunun hücumçusuna "elçi düşüb". Hətta klublar arasında danışıqlara da başlanılıb. Cənubi Afrika Respublikası (CAR) yığmasının üzvü "Qarabağ"ın heyətində Çempionlar Liqasındakı çıxışı ilə çinlilərin diqqətini cəlb edib.

Ndlovunun özünün də Çin klubuna keçməkdə maraqlı olduğu iddia edilib. Bu səbəbdən "Hançjou Qrintaun" klubu transferi reallaşdırmaqda israrlı görünür: "İki klub arasında danışıqlar davam edir. Bu keçid hər iki tərəf üçün sərfəli ola bilər. Rumıniya klubu "ÇFR Kluj"unun da gündəmində olan bir hücumçunun "Qarabağ"la müqavilə müddəti yayda bitir. Bu səbəbdən Ndlovu yanvarın 1-də istənilən klubla danışıq apara və razılıq əldə edə bilər".

CAR mətbuatı isə Azərbaycan çempionunun hücumçusunun keçidindən 1 milyon avro gəlir əldə etmək niyyətində olduğunu yazıb. Ancaq qarşı tərəf 750 min avro təklif edib: "Futbolçunu "Anortosis"dən 350 min avroya alan "Qarabağ" onun Çinə köçməsi ilə bu məbləğin 3 qatını qazana bilər".

Qeyd edək ki, Dino Ndlovu "Qarabağ"a ötən il "Anortosis"dən keçib.

## UEFA kapitanı neçə oyunluq cəzalandırdı?

UEFA İntizam Komitəsi İngiltərənin "Çelsi" klubu ilə Çempionlar Liqasının V tur matçında birbaşa qırmızı vərəqə alan "Qarabağ"ın kapitanı Rəşad Sadıqovla bağlı qərarını açıqlayıb. 35 yaşlı müdafiəçi bir oyunluq cəzalandırılıb.



Rəşad Sadıqov cəzasını Azərbaycan təmsilçisinin İtaliyada "Roma"ya qarşı keçirdiyi VI tur qarşılaşmasında çəkib. Onun iştirak etmədiyi görüş meydan sahiblərinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Bu görüşdə daha bir cəzalı Pedro Enrike də Ağdam komandasına kömək edə bilməyib. Braziliyalı legioner İspaniyada "Atletiko" ilə IV tur matçında Dieqo Qodinin sifətinə açıq ayaqla zərbə endirdiyi üçün 2 oyunluq cəzalanmışdı.

Beləliklə, "Qarabağ" yenidən avrokuboklara vəsiqə qazansa və hər iki futbolçu bu komandada yer alsa, onlar gələn mövsüm elə ilk oyundan etibarən meydana çıxa biləcəklər.

Qeyd edək ki, Rəşad Sadıqov "Qarabağ" - "Çelsi" matçının 19-cu dəqiqəsində birbaşa qırmızı vərəqə alıb. Rəqib futbolçu Villian onunla mübarizədə cərimə meydançası daxilində yerə yıxıldığı üçün portuqaliyalı baş hakim Manuel de Souza meydan sahiblərinin qapısına penalti təyin edib və kapitanı meydandan kənarlaşdırıb. Görüş qonaq komandanın 4:0 hesablı qələbəsi ilə yekunlaşıb.

## *Rövnəq Abdullayev:*
## "UEFA tərəfindən ölkəmizdə üç təbii örtüklü meydança salınacaq"

Ötən həftə AFFA-nın İcraiyyə Komitəsinin iclası keçirilib. Toplantıdan sonra AFFA-nın prezidenti Rövnəq Abdullayev, baş katib Elxan Məmmədov və Azərbaycan milli komandasının yeni baş məşqçisi Qurban Qurbanovun iştirakı ilə mətbuat konfransı keçirilib. Tədbir iştirakçıları jurnalistlərin çoxsaylı suallarını cavablandırıblar.



### "Bu, qitə futbol qurumunun bizə hədiyyəsidir"

*- İcraiyyə Komitəsinin iclasında hansı məsələlər müzakirə olundu?*

- **R.A.:** Milli komandaların futbolçularının qalması üçün bazanın açılışını etdik. Burada bir komandanın yaşaması və məşq etməsi üçün hər bir şərait yaradılıb. Həmçinin gələcəkdə "Səbail" klubu da həmin bazadan istifadə edəcək. Bütün maliyyə xərcləri UEFA tərəfindən ödənilib. Bu, qitə futbol qurumunun bizə hədiyyəsidir.

İcraiyyə Komitəsinin iclasında əsas qərar milli komandaların baş məşqçilərinin təsdiqi oldu. Seçim, əsasən, millimizin baş məşqçisi Qurban Qurbanov və mütəxəssislər tərəfindən edilib. Bundan başqa, manipulyasiya ilə bağlı bizə məlumat verildi. UEFA hətta regional oyunları da nəzarətdə saxlayır. Hamı bilsin ki, futbolla məşğul olan adam mərc oyunlarında heç vaxt iştirak etməməlidir. Keçən il bu qanun qəbul olundu. Bu, artıq cinayət məsuliyyəti deməkdir. "Keşlə"nin iki futbolçusu və "Neftçi"nin bir məşqçisi artıq prokurorluğa verilib.

UEFA tərəfindən ölkəmizdə üç təbii örtüklü meydança salınacaq. Qitə futbol qurumunun maliyyə vəsaitləri ilə Sumayıtda iki və Bakı Olimpiya Stadionunda isə bir meydança tikiləcək. Region Liqasının başlanması ilə bağlı hesabat da verildi. Bu yarışa maraq çox böyükdür. Azərbaycanı əhatə edən yarışlar olacaq və futbolun inkişafına təkan verəcək.

*- "Kəpəz" klubunda aparılan yoxlamanın nəticəsi açıqlanmadı...*

- **R.A.:** Əfsuslar olsun ki, bizim nümayəndə tərəfindən pozuntuya cəhd olunmuşdu. Yoxlamanın nəticələri ilə tanış olduq və bir neçə nəfəri işdən azad etdik. Sistemi elə qurmaq istəyirik ki, şəffaf olsun. Yenə manipulyasiya məsələsinə qayıdıram. Həmin şəxslər barədə qəti tədbir görüldü. Bu, belə də davam edəcək. UEFA nümayəndələri ilə görüşəndə deyildi ki, Şərqi Avropa ölkələrində də bu hallar var. Amma Avropanın mərkəzində bunun kökünü kəsiblər.

*- Region Liqasından I diviziona çıxan komanda olacaq?*

- **R.A.:** Bəli, bir komanda çıxacaq. I diviziona da sonuncusu ora düşəcək. Həmçinin I diviziondan bir komanda Premyer Liqaya vəsiqə qazanacaq.

*- Futboldan uzaqlaşdırılanlar barədə konkret səbəb göstərilmədi...*

- **R.A.:** Futbolçular özləri səhvlərini etiraf etdilər. Bu, böyük sistemdir, iş davam edir. Futbolda məşğul olan insanların bu işi görmək ixtiyarı yoxdur. Böyük iş apardıq. UEFA-dan məlumatlar gəlirdi. Həmin klublar arasında "Rəvan", "Bakı" kimi komandaların adları hallanırdı. UEFA tələb qoydu ki, çempionatdan çıxarılmalıdır. Amma indiki məsələ fərdi şəxslərlə bağlıdır.

- **E.M.:** Hazırda araşdırma davam edir. İndi hər şeyi açıb danışsaq, araşdırmanı əhəmiyyətsiz etmiş oluruq. Futbolçu qəsdən zəif oynadığını etiraf edirsə, bu, futbol qanunlarına ziddir. Ortada nəsə var ki, bu cəzanı tətbiq etmişik.

### "Qərbdəki futbol mədəniyyətini Azərbaycanda tətbiq etmək istəyirik"

*- İlk yoxlama görüşü Gürcüstan millisinə qarşı olacaq. Bu simvolikdir, yoxsa təsadüf?*

- **Q.Q.:** İlk yoxlama görüşümüz Gürcüstan komandası ilə razılaşdırılıb. Amma ola bilər ki, bundan əvvəl Antalyada başqa komanda ilə qarşılaşaq.

*- Millinin yoxlama oyunlarının Bakıdan kənarda keçirilməsini istərdinizmi?*

- **Q.Q.:** Rayonlardakı stadionların şəraitinə baxmaq lazımdır. Bölgələrdə futbolun inkişafı üçün çalışmalıyıq. Ondan sonra bu barədə düşünmək olar. Bu, gələcəyin işidir.

*- Millətlər Liqası başlayanadək neçə yoxlama görüşü nəzərdə tutulub?*

- **Q.Q.:** Çox istərdim ki, oyunların sayı çox olsun. Mart və may aylarında da təlim-məşq toplanışları planlaşdırılıb. Komanda tapmaq çətindir. Çalışacağıq ki, oyunların sayını artıraq.

*- 2019-cu ildə Bakıda Avropa Liqasının finalı keçiriləcək. Hansı yeniliklər gözlənilir?*

- **E.M.:** Yeni sistem tətbiq edəcəyik. Polislərlə birlikdə xüsusi təlimlər olacaq. 1200 polis əməkdaşı "stuart" sistemi üzrə təlim alacaq. Qərbdəki futbol mədəniyyətini Azərbaycanda tətbiq etmək istəyirik. Təlimlərə apreldə başlayacağıq. Nəticəsini isə 2019-cu ildə görəcəyik. Stadionlarda təhlükəsizlik çox vacibdir. Bu gün polissiz bir oyun təşkil edə bilmərik. "Stuart" sistemi olanda isə onlar hər kəsə xidmət göstərəcəklər.

### "Çox istəyərəm ki, azərbaycanlı futbolçularla birlikdə uğur əldə edək"

*- Milliləşdirmə ilə bağlı problemlər var. Nəticənin vacibliyini nəzərə alaraq, öz prinsiplərinizdən müəyyən dərəcədə çəkilə bilərsinizmi?*

- **Q.Q.:** Futbolda mütləq ən yaxşısını axtarmalıyıq. Öz futbolçularımızdan maksimum istifadə edəcəyik. Çox istərdim ki, azərbaycanlı futbolçuların səviyyəsi artsın. Onların inkişafı çox önəmlidir. Mən "Qarabağ"a gələndə yeganə əcnəbi futbolçu Admir Teli idi. Sonra kluba legionerlər cəlb etdik. Sırf yerlilərlə oynasa idik, bəlkə də, mənə hörmətiniz daha çox olacaqdı. Amma hansısa mövqedə problem varsa, bunu düzəltmək vacibdir. Məsələn, "Qarabağ"da 4 müdafiəçimiz zədəli idi. Bizdə hələ legioner var, bu problemlə üzləşirik. Düşünürəm ki, qərarımı normal qarşılayacaqsınız. Çox istəyərəm ki, azərbaycanlı futbolçularla birlikdə uğur əldə edək. Amma biz ölkəmizi təmsil edirik. Lazım olduğu qədər bütün mövqelərdə sağlam rəqabətə çalışacağıq. Ola bilsin ki, bəzi dəyişikliklər edilsin. Bədavi Hüseynovun komandaya hələ nə vaxt qayıdacağı bəlli deyil.

*- Yığmanın məşqçilərini məsləhət görərkən hansı keyfiyyətlərə önəm verdiniz?*

- **Q.Q.:** Düzdür, çətinlik çəkdik. Rəşaddan başlayım. O, mənim futbol fəlsəfəmi yaxşı bilir. Gənclərə üstünlük verməyimizin səbəbi odur ki, hər birinin potensialını bilirik. Onların hər biri buyaxınlarda PRO kateqoriyasını alacaq. Zaur Həşimov mənim yanımda çox olub. Vüqar Məmmədin millilərdə təcrübəsi çoxdur.

*- Yığmanın əvvəlki heyətində çox dəyişiklik olacaq?*

- **Q.Q.:** Hər bir futbolçunun milliyə düşmək şansı olacaq. Rəqibdən asılı olaraq, dəyişikliklər ola bilər. Bəlkə də, hər oyunda 4-5 dəyişiklik edildi.

*- Son günlər gəlirlərinizlə bağlı yazılar dərc olundu. Bununla bağlı fikirləriniz maraqlıdır...*

- **Q.Q.:** Məni pul maraqlandırmır. Futbolçu olanda da, heç bir rəhbərdən pul tələb etməmişəm. Qürurla futbolumuza xidmət edirəm. Bəzi sahələr var ki, oranı inkişaf etdirməliyik. Bununla bağlı Elxan müəllimlə müzakirələr aparmışıq.

- **E.M.:** Müqavilə imzalanacaq və maliyyə baxımından maaş da olacaq. Amma hər şey müqavilənin şərtlərindən asılıdır.

### "Bu etimadı doğrultmağa çalışmalıyam"

*- Premyer Liqada çıxış edən əksər klublar limitdən narazıdılar. Sizin fikriniz necədir?*

- **Q.Q.:** Dəfələrlə cavab vermişəm ki, hər bir sistemi stabil etmək üçün bəzi variantlara əl atmaq lazımdır. AFFA da bəzi variantlardan istifadə edib ki, düzgün sistem qurulsun. Hazırda bunu tam formalaşdırmamışıq. Bu suala indi cavab verə bilməyəcəm. Bu məsələ gələn mövsüm üçün düşünüləcək. Bir çox məsələ var ki, AFFA rəhbərliyi ilə müzakirə edəcəyik. Hətta klubların inkişafı üçün də yollar axtaracağıq. Baxacağıq görək, hansı sistemdə daha çox futbolçu qazanmışıq. Hamının fikrinə hörmətlə yanaşmalıyıq.

*- "Qarabağ"ın oyun sistemində hansısa dəyişiklik olacaq?*

- **Q.Q.:** "Qarabağ" mənim öz komandamdır, daim bir yerdə oluruq. Millidə isə 4-5 dəfə toplaşırıq. Ümumi tələblər eyni olacaq. Dəyişiklik rəqiblərin kimliyinə görə dəyişəcək. "Qarabağ"la hələ il yarımlıq müqaviləm var. Biz bunun ətrafında müzakirə aparmamışıq. Hər iki yerdə işləmək çox çətindir. Amma bu etimadı doğrultmağa çalışmalıyam.

*- Süni meydançaların təbii ot örtüyü ilə dəyişdirilməsi gündəmdədir?*

- **E.M.:** 2008-ci ildə cəmi bir stadionumuz var idi. İndi isə "Dalğa Arena" var. Qadınlar arasında dünya çempionatı təşkil olunmuşdu. Orada süni meydançanı müvəqqəti quraşdırmışdıq. Sonra onu dəyişdik. Ardından məşq meydançalarını artırdıq, bazanı inkişaf etdirdik. "Bakcell Arena"nı da düzəltdik. Klublarımıza gəlincə, "Neftçi"nin bazasında 3 təbii meydança salınıb. İngiltərənin "Çelsi" klubunun bazasını da gəzmək imkanımız olub. Çox bazada olmuşam, amma "Çelsi"nin bazası kimisini görməmişəm. Sumqayıtdakı meydança illər keçdikcə pisləşir. FİFA tərəfindən ayrılan maliyyə hesabına orada meydançalar salınacaq. Bir ildə 32 meydança tikə bilmərik. Bayılda gördüyünüz meydança 2 ilə başa gəlib. Burada başqa meydançalar da salmağı düşünürük. Yer məhdudiyyəti var. İstəyirik ki, meydançaların sayı artsın. Bu, təbii ki, bir gündə alınmır.

*- Millidə hansısa mükafat sistemi olacaq?*

- **Q.Q.:** Rəhbərliklə bu barədə hələ görüşümüz olmayıb. İstəmirəm ki, verilən mükafat açıqlansın. Heç kimin qazancında gözüm yoxdur. Çalışıq ki, hər kəs layiq olduğunu əldə etsin.

*Rahib Səmədov*

# DÜNYA



# idmanı





## 5 qat NBA çempionu heykəltaraşlara ipucu verib

"Leykers" klubunun əfsanəvi basketbolçusu Kobi Brayant yeni zarafatı ilə milyonların diqqətini cəlb edib. Karyerası ərzində böyük uğurlara imza atdığını, onların tarixdə qalacağını əminliklə söyləyən Kobi deyib: " Bir vaxt gələcək, yəqin ki, mənim üçün abidə qoymaq fikrinə düşəcəklər. Lakin həmin abidədə mənim köynəyimdəki nömrəni qoymaq çətin olacaq. Heykəltaraş bu barədə çox düşünəcək. Lakin mənim saçlarım onu çətin vəziyyətdən qurtaracaq. Saçlarımı nizama salıb saya bilsə, köynəyə həmin nömrəni qoya bilər. Qeyd edək ki, Kobi Brayant 20 il ərzində (1996-2016) 1346 oyunda iştirak edib. Karyerası ərzində 8 və 24 nömrəli forma ilə "Leykers" klubunda çıxış edən basketbolçu 5 qat NBA çempionudur.

## Fransalı ulduz gələcəkdə məşqçi olmağı arzulayır

Fransa yığmasının və "PSJ" klubunun hücumçusu Kilyan Mbappe futbolçu karyerasını başa vurduqdan sonra məşqçi olmağı düşünür. 18 yaşlı futbolçu bildirib ki, o, gələcəkdə ya "Monako"nun, ya da ki, hazırki klubunda məşqçilik etmək arzusundadır. "Baş məşqçilik etmək çətindir. Lakin mən çətinliyi sevirəm. Heç nə əbədi deyil. Bu gün futboçuyamsa, sabah mənim yerimdə başqası olacaq. Karyeramı başa vurduqdan sonra bekar oturmaq istəmirəm. Futbolu sevirəm. Gələcəyimi isə məşqçi olmaqda görürəm", - deyə fransalı futbolçu bildirib.





## İtaliya millisindən zəlzələ qurbanlarına yardım

İtaliyanın voleybol yığması Olimpiadadan qazandığı mükafatları zəlzələdən zərər çəkənlərə veriblər.

Voleybol üzrə İtaliyanın yığma komandası ölkədə baş vermiş zəlzələdən zərər çəkənlərə 50 min avro xərcləyib.Komandanın üzvləri Rio-2016 Yay Olimpiya Oyunlarında qazandıqları gümüş medalları faciə qurbanları üçün hərraca çıxarıblar. Əldə olunan gəliri isə xeyriyyə fonduna köçürüblər. Məlumat üçün bildirək ki, bədbəxt hadisədə həlak olanların sayı 294 nəfərə çatıb. 388 nəfər xəsarət alaraq xəstəxanalara yerləşdirilib, 2 mindən artıq adam isə evsiz-eşiksiz qalıb.



*Ziaei Zardkhashoeo (İran)*

*"Olimpiya dünyası" qəzetinin arxivindən*

**("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)**

## Ulduz futbolçu Çilidə xəstəxana tikdirir

Madrid "Real"ının ulduzu Kriştianu Ronaldu futboldan əldə etdiyi pulları xeyriyyə məqsədilə xərcləməkdə davam edir. Dünyanın ən yaxşı futbolçusu bu dəfə Çilidə uşaqların müalicəsi üçün yeni xəstəxana tikdirməyə qərar verib. Həmin xəstəxananın 2020-ci ildə istifadəyə veriləcəyi planlaşdırılır.

Qeyd edək ki, "Save The Children" ("Uşaqları qoruyaq") adı altında fəaliyyət göstərən təşkilatın səfiri olan Kriştianu Ronaldu buna qədər bir neçə uşağın əməliyyat və müalicə xərclərini öz üzərinə götürüb.

## Məşhur idmançıların məşhur fikirləri

*İdmanda təslim olmayana qədər sən məğlub deyilsən.*

***Maykl Cordan***

* * *

*Səbr gücün təməlidir. Bunu başa düşən idmançı məğlubiyyətdən uzaq olar.*

***Feyodr Emelyanenko***

* * *

*Mənim ən böyük rəqibim elə mən özüməm. Çalışmışam ki, hər zaman özüm-özümə qalib gəlim.*

***Yelena İsinbayeva***

*İdmanda yalnız bir nəfər zəif olduğunu gizlətməməlidir. Həmin şəxs baş məşqçidir.*

***Ueyn Runi***

* * *

*Mən düşünmürəm ki, dünyada ən yaxşıyam. Düşünürəm ki, məndən yaxşısı yoxdur.*

***Joze Mourinyo***

* * *

*Bilirsiniz, mən nə üçün vurduğum qollara görə sevinmirəm? Çünki bu mənim işimdir. Bəyəm poçtalyon hər ünvana çatdırdığı məktuba və bağlamaya görə özünü alqışlayır?*

***Mario Balotelli***





*Anam həmişə məni ən yaxşı adlandırıb. Mən isə anamla mübahisə edə bilmərəm.*

***Maradona***

* * *

*Unutmayın ki, dünyada günəş şəfəqindən başqa heç bir zərbə cavabsız qalmayacaq.*

***Məhəmməd Əli***

*Su kimi hərəkətli, güzgü kimi sakit ol. Səs kimi cavab ver!*

***Bryüs Li***

* * *

*Heç vaxt "Qızıl top" barədə düşünməmişəm. Komandamın hər qələbəsi mənim "qızıl topumdur"*

***Zlatan İbrahimoviç***

## Viktorina

Ölkəmizdə idmanın, Olimpiya Hərəkatının inkişafı və təbliğində özünəməxsus dəsti-xətti olan "Olimpiya dünyası" qəzeti fəaliyyətinin ilk günlərindən başlayaraq müxtəlif layihələr həyata keçirir. Bu layihələrdən biri də çoxsaylı oxucularımız arasında maraqlı viktorinaların təşkilidir. Məlumat üçün bildiririk ki, viktorinaya hər ayın sonunda yekun vurulacaq, qaliblər redaksiyaya dəvət olunaraq müxtəlif hədiyyələrlə



mükafatlandırılacaq və "Olimpiya dünyası" qəzetinə 1 illik pulsuz abunə olunacaqlar.

Diqqət...Diqqət.

Oxucularımıza hər dəfə 5 suala cavab tapmalıdırlar.

Hər doğru cavab 1 balla qiymətləndiriləcək. Cavabları aşağıda göstərilən ünvana və ya elektron poçta göndərə bilərsiniz.

**Ünvan:** *Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a (Metronun "Gənclik" stansiyasının yaxınlığında)*

**E-mail:**
olimpiya_dunyasi@mail.ru

*Əlaqə telefonları: (012) 564-74-19; 564-90-49; 564-90-54*

| Suallar | Cavablar |
|---|---|
| 1. *BOK milli Olimpiya komitələrinin yaradılması barədə nə vaxt və hansı sessiyada qərar qəbul edib?* | |
| 2. *Bobsley şossesinin uzunluğu nə qədərdir?* | |
| 3. *Futbolda sarı və qırmızı vərəqələrdən istifadə olunmasını FİFA-ya kim təklif edib?* | |
| 4. *İlk dəfə hansı oyunda het-trik qeydə alınıb və hansı futbolçu neçə dəqiqə ərzində fərqlənib?* | |
| 5. *Müasir tennisin vətəni haradır?* | |

## Film Uill Smit və Maykl Cordanı bir araya gətirəcək



Tanınmış amerikalı aktyor Uill Smit basketbolun əfsanəsi olan Maykl Cordanın beysbolçu kimi uğurlarından bəhs edən filmdə prodüsserlik edəcək. Həmin filmin adı isə "Perspektivli" ("The Prospect") olacaq.

Filmin ssenarisinə görə, 1993-cü ildə atasının ölümündən bir neçə ay sonra Cordan basketboldan getməsi barədə açıqlama verir. Tezliklə "Çikaqo Uayt Soks" beysbol klubu ilə müqavilə bağlayır. Ekran əsərində hadisələr həmin dövrdə baş verir. Filmin gələn il ekranlara çıxacağı gözlənilir.

Qeyd edək ki, bu arada "Forbes" nəşri dünyanın ən varlı idmançılarının adlarını açıqlayıb.

Amerikalı basketbolçu Maykl Cordan dünyada bütün dövrlərin ən varlı idmançısı adını qazanıb. Basketbolçu karyerası ərzində 1,85 milyard dollar qazanıb. İlk üçlüyə həmçinin qolfçular Tayqer Vuds (1,7 milyard) və Arnold Palmerin (1,4 milyard) adları daxil edilib.

Futbolçular arasında ən zəngin İngiltərə yığmasının sabiq oyunçusu Devid Bekhem olub. O, karyerası ərzində 800 milyon dollar qazanıb.

Portuqaliyalı Kriştianu Ronaldu 12-ci (725 milyon), argentinalı Lionel Messi isə 16-cı (600 milyon) pillədə qərarlaşıb.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin kollektivi Su İdman növləri üzrə respublika yüksək idman ustalığı məktəbinin direktoru

**Olqert Zotoviç Tsexovskiyin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktor:
M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54;
564-74-19